№ 138 (5660), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günәş Şәrqdәn doğur!

www.sherg.az 6 avqust 2022-ci il (şәnbә)

## Hәrbçimiz Kәlbәcәrdә minaya düşәrәk hәlak olub



**Kәlbәcәr rayonunun şәrqindә, yeni nәzarәtә götürülmüş әrazidә ermәnilәr tәrәfindәn basdırılmış minanın partlaması nәticәsindә avqustun 5-dә Azәrbaycan Ordusunun hәrbi qulluqçusu Әliyev Babәk Әsgәr oğlu hәlak olub.**

Bu barәdә "Şәrq"ә Müdafiә Nazirliyindәn mәlumat verilib.

"Müdafiә Nazirliyinin rәhbәrliyi hәrbi qulluqçumuzun ailәsinә vә yaxınlarına dәrin hüznlә başsağlığı verir, sәbr dilәyir! Allah rәhmәt elәsin!", - mәlumatda qeyd edilib.

## Vandalizm aktı hәrtәrәfli araşdırmalıdır

Türk Dövlәtlәri Tәşkilatı Azәrbaycanın Londondakı sәfirliyinә hücumu pislәyib

**Türk Dövlәtlәri Tәşkilatı Azәrbaycanın Londondakı sәfirliyinә hücumu pislәyib.**

APA-nın İstanbul müxbiri xәbәr verir ki, bu barәdә TDT mәlumat yayıb.

"Radikal dini qruplar tәrәfindәn Türk Dövlәtlәri Tәşkilatının qurucu üzvü Azәrbaycanın Londondakı sәfirliyinә qarşı zorakı vә qәbuledilmәz hücumu pislәyirik. Biz bu vandalizm aktını hәrtәrәfli araşdırmağa çağırırıq", - mәlumatda bildirilib.



## Vәtәnә oğul dünyaya gәldi

24 dәfә әmәliyyat edilәn qazi ata olub

**Vәtәn müharibәsindә Füzuli, Cәbrayıl, Xocavәnd, Suqovuşan istiqamәtindә qәhrәmancasına döyüşәn, aldığı xәsarәtlәr sәbәbilә 24 dәfә әmәliyyat olunan Ayxan İsayev ata olub.**

TӘBİB-dәn verilәn mәlumata görә, Elmi-Tәdqiqat Mamalıq vә Ginekologiya İnstitutu tәrәfindәn qazi Ayxan İsayevin hәyat yoldaşı Bahar İsayeva hamilәlik müddәtindә xüsusi nәzarәt altında olub.

Hamilәlik müddәtindә müxtәlif problemlәrlә qarşılaşan B.İsayeva bir neçә dәfә stasionar şәkildә İnstitutda müalicәsini davam etdirib. Daha sonra isә xәstәyә davamlı ambulator müalicәlәr tәtbiq olunub.

Onların çәkisi 2 550 qram, boyu 48 sm olan sağlam oğul övladı dünyaya gәlib.



## “Azәrbaycan sәfirliyinә hücumdan narahatıq"

Aİ nümayәndәsi: “Diplomatik nümayәndәliklәrә vә onların әmәkdaşlarına qarşı zorakılıq yolverilmәzdir”

**"Azәrbaycanın Londondakı sәfirliyinә dünәnki hücumdan narahatlıq keçirdim".**

Bunu Avropa İttifaqının (Aİ) Azәrbaycandakı Nümayәndәlәyinin rәhbәri sәfir Peter Mixalko tviterdә yazıb.

"Diplomatik nümayәndәliklәrә vә onların әmәkdaşlarına qarşı zorakılıq yolverilmәzdir. Sәfirlik әmәkdaşlarının vә onların ailә üzvlәrinin sağsalamat olmasından şad oldum", - diplomat qeyd edib.

# Putin-Әrdoğan görüşü 4 saat çәkib

Qarabağ prosesindә dә dönüş yaranacaq







**“Türkiyә artıq reallıq yaratdı. Bu reallıq nәticәsindә biz görürük ki, Rusiya-Türkiyә dialoqunda hәm dә Qarabağ, Zәngәzur mәsәlәlәri müzakirә olunmaqdadır”**

Dünәn Rusiyanın Soçi şәhәrindә Türkiyә Prezidenti Rәcәb Tayyib Әrdoğanla rusiyalı hәmkarı Vladimir Putin arasında görüş keçirilib. Әrdoğan rusiyalı hәmkarı Vladimir Putinlә görüşü zamanı әmәkdaşlıqda "yeni sәhifәnin açılacağını" deyib. O, Türkiyәnin Mersin şәhәrindә "Akkuyu" AES-in tikintisi layihәsi çәrçivәsindә işlәrin davam etdirilmәsinin vacibliyini dә vurğulayıb: "Ümid edirәm ki, bugünkü danışıqların nәticәlәrindәn sonra mәsәlә müәyyәn nöqtәyә gәtirilәcәk, qiymәtlәndirmә aparılacaq, qәrarlar verilәcәk ki, bu da prosesin uzanmasının qarşısını alacaq". Türkiyәnin dövlәt başçısı işlәrin әvvәllәr tәsdiq edilmiş qrafikә uyğun hәyata keçirilmәsinin vacibliyini vurğulayıb.

(sәh.2)

## Dövlәt Xidmәti xәbәrdarlıq edib

Azәrbaycanın elektron informasiya resurslarına qarşı kiberhücumlar hazırlanıb



**Azәrbaycanın elektron informasiya resurslarına qarşı genişmiqyaslı kiberhücumlar hazırlanıb.**

Xüsusi Rabitә vә İnformasiya Tәhlükәsizliyi Dövlәt Xidmәtinin (XRİTDX) Kompüter İnsidentlәrinә qarşı Mübarizә Mәrkәzindәn verilәn mәlumata görә, kiberhücumlar daim nәzarәtdә saxlanılır vә dövlәt informasiya resurslarına qarşı bu ilin mayın 3-dәn davam edәn DDOS vә digәr tipli kiberhücumların qarşısı uğurla alınır. XRİTDX dövlәt vә qeyri dövlәt informasiya resursları inzibatçılarını, elәcә dә fişinq tipli hücumlara qarşı vәtәndaşları diqqәtli vә ayıq olmağa çağırır.

# Ayıq-sayıq olmalıyıq

“Hey, ingilislәr, sayıqlığınıza kölgә düşürdünüz bu olaya gec qalmaqla”



**Avqustun 4-ü axşam saatlarında bir neçә radikal ünsür Londonda Azәrbaycan sәfirliyinә hücum edib.**

Sosial mediada yayılan video görüntülәrdә bir neçә namәlum şәxsin Londonda Azәrbaycan sәfirliyinin yerlәşdiyi binanın balkonuna çıxdığı, dini şüarlar qışqırdığı, pәncәrә vә divarlarda әrәbcә yazılar yazdıqları әks olunur. Video kadrlarda bir nәfәrin balkonda sancılan Azәrbaycan bayrağını çıxarıb tulladığı, yerinә әrәbcә sözlәr yazılmış mavi bayraq asdığı da görünür. Yerli polisin müdaxilәsindәn sonra qrup üzvlәri binadan çıxarılıb vә saxlanılıb.

Böyük Britaniyanın "Metro" qәzeti sәfirliyә hücum edәn şәxslәrin "Mehdinin nökәrlәri" Birliyinin üzvlәri olduğunu yazıb.

(sәh.3)



## Laçında sıldırım qayalıqlardan qaya parçası qopub

Hadisә zamanı iki әsgәrimiz dünyasını dәyişib

Dünәn Laçın rayonunda çәtin relyefli әrazidә xidmәti döyüş tapşırığını yerinә yetirәrkәn sıldırım qayalıqlardan qopan qaya parçası Azәrbaycan Ordusunun müddәtli hәqiqi hәrbi xidmәt hәrbi qulluqçuları әsgәr Samir Sәmәd oğlu Xudiyev vә әsgәr Әliyev Tahir Çingiz oğlunun üzәrinә düşüb. Nәticәdә әsgәr Samir Xudiyev aldığı bәdәn xәsarәtlәrindәn hadisә yerindә vәfat edib

Әsgәr Tahir Әliyev isә müxtәlif bәdәn xәsarәtlәri alıb vә hospitala yerlәşdirilib.

(sәh.2)

## Son sutkada ölәn olmayıb

540 yeni yoluxma faktı qeydә alınıb




**Azәrbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 540 yeni yoluxma faktı qeydә alınıb, 370 nәfәr müalicә olunaraq sağalıb.**

Nazirlәr Kabineti yanında Operativ Qәrargahdan "Şәrq"ә verilәn mәlumata görә, COVID-19 üçün götürülәn analiz nümunәlәri müsbәt çıxmış şәxslәrdәn ölәn olmayıb.

Azәrbaycanda indiyәdәk ümumilikdә 801 018 nәfәrin koronavirus infeksiyasına yoluxması faktı müәyyәn edilib. Onlardan 788 209 nәfәr müalicә olunaraq sağalıb, 9 755 nәfәr vәfat edib, aktiv xәstә sayı 3 054 nәfәrdir.

Ölkәdә son sutka әrzindә 3 485, hazırkı dövrәdәk isә 7 062 408 test aparılıb.

## Bakıda gәnc oğlan 13-cü mәrtәbәdәn yıxılaraq ölüb



**Xәtai rayonunda gәnc oğlan binadan yıxılıb.**

**APA xәbәr verir ki, hadisә "Babәk Plaza"nın yaxınlığında qeydә alınıb.**

Hәmin әrazidә yerlәşәn hündür mәrtәbәli binanın 13-cü mәrtәbәsindәn yıxılan şәxs aldığı xәsarәtlәrdәn hәyatını itirib.

Hadisә yerinә hüquq-mühafizә orqanlarının әmәkdaşları cәlb olunub.

*Hadisәnin baş vermә sәbәblәri araşdırılır.*



## Koronavirus birdәfәlik yoxa çıxacaq

Adil Qeybulla: Virusun orqanizmdә lövbәr salıb qalması ehtimalı çox aşağıdır

(sәh.3)



## Bütün Laçın ovcumuzun içindә vә nәzarәtimizdәdir

Qırxqız vә Sarıbaba yüksәkliklәrinin strateji әhәmiyyәti böyükdür

(sәh.4)

# Azərbaycan Ordusu təxribatın qarşısını alıb

## Prezident: "Gərginliyə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür"



### Makron Azərbaycan Prezidentinə zəng edib

**Avqustun 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Emmanuel Makron son günlərdə regionda yaranmış gərginlikdən narahatlığını ifadə edərək Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinin və 2020-ci 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının həyata keçirilməsinin vacibliyini qeyd edib. O, Fransanın iki ölkə arasında dialoqun davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədildiyini və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş bu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olduğunu vurğulayıb. Dövlətimizin başçısı Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını aldığını, lazımi cavab tədbirləri gördüyünü deyib və baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir. Lakin Ermənistan tərəfindən bu hələ də təmin edilməyib. Bu isə öz növbəsində rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması və Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsidir.

Dövlətimizin başçısı vurğulayıb ki, üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir. Bu işlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.





# Özbəkistan və Qırğızıstan Azərbaycanın Britaniyadakı səfirliyinə hücumu pisləyib

**Özbəkistan XİN Azərbaycanın Londondakı səfirliyinə hücumla bağlı bəyanat yayıb.**

**Bəyanatda deyilir: "Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi 2022-ci il avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu qətiyyətlə pisləyir.**

Biz diplomatik nümayəndəliklərin üzvlərinin həyatı və sağlamlığı üçün təhlükə yaradan hər hansı hərəkəti qətiyyən yolverilməz hesab edirik.

Biz bu hadisənin hərtərəfli araşdırılmasına və bütün əli olanların məsuliyyətə cəlb edilməsinə çağırırıq.

Özbəkistan tərəfi xaricdəki vətəndaşlarının təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsində qardaş Azərbaycana dəstəyini ifadə edir".

*Qırğız Respublikasının Xarici İşlər Nazirliyi də Böyük Britaniyadakı Azərbaycan səfirliyinə hücumu pisləyib. Bu barədə Qırğız Respublikasının Xarici İşlər Nazirliyi bəyanat yayıb.*

"Qırğız Respublikasının Xarici İşlər Nazirliyi 2022-ci il avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyinə hücumu və onun əmlakına qarşı törədilmiş vandalizm aktını qətiyyətlə pisləyir.

Biz hadisənin hərtərəfli və obyektiv araşdırılmasına, günahkarların məsuliyyətə cəlb olunmasına çağırırıq", - deyə bəyanatda bildirilir.

# Putin-Ərdoğan görüşü 4 saat çəkib

## Qarabağ prosesində də dönüş yaranacaq



**Dünən Rusiyanın Soçi şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında 4 saatlıq görüş keçirilib. Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə görüşü zamanı əməkdaşlıqda "yeni səhifənin açılacağını" deyib.**

O, Türkiyənin Mersin şəhərində "Akkuyu" AES-in tikintisi layihəsi çərçivəsində işlərin davam etdirilməsinin vacibliyini də vurğulayıb: "Ümid edirəm ki, bugünkü danışıqların nəticələrindən sonra məsələ müəyyən nöqtəyə gətiriləcək, qiymətləndirmə aparılacaq, qərarlar veriləcək ki, bu da prosesin uzanmasının qarşısını alacaq". Türkiyənin dövlət başçısı işlərin əvvəllər təsdiq edilmiş qrafikə uyğun həyata keçirilməsinin vacibliyini vurğulayıb. Xatırladıb ki, "Akkuyu" AES Türkiyənin ehtiyac duyduğu bütün elektrik enerjisinin 10 faizini istehsal edəcək. Putin öz növbəsində bildirib ki, Türkiyənin də iştirak etdiyi "Türk axını" qaz kəməri bu gün Avropanı Rusiyadan qazla təmin etmək üçün ən mühüm arteriyalardan biridir. Ərdoğan vurğulayıb ki, müzakirə edilən və nöqtəsi qoyulacaq mövzular Türkiyə-Rusiya münasibətlərində yeni səhifə açacaq. O qeyd edib ki, Suriya ilə bağlı müzakirə etdikləri mövzular region üçün böyük əhəmiyyət kəsb edir. Putin isə öz növbəsində vurğulayıb ki, Avropa Rusiyadan təbii qazın fasiləsiz axınına görə Türkiyəyə minnətdar olmalıdır. O həmçinin, Türkiyənin Suriyada vəziyyətin normallaşmasına dair atdığı addımların vacibliyini də vurğulayıb: "Tədarük prosesinə start verilib. Rusiya ərzaq məhsullarının və gübrələrinin də dünya bazarlarına çıxarılması və fasiləsiz tədarükü haqqında qərar qəbul edilməsinə görə sizə minnətdarlığımı bildirmək istəyirəm". O, Türkiyə prezidentinin və BMT-nin Baş katibi Antoniu Quterreşin bu problemin nizamlanmasına verdiyi töhfəni xüsusilə vurğulayıb. Putinin sözlərinə görə, bu addım bir çox ölkə, ilk növbədə, inkişaf etməkdə olan ölkələr üçün vacib rol oynadı və onlara ciddi ərzaq böhranından xilas olmaq imkanı verdi. Kreml rəhbəri bunun ərzaq və su təminatı ilə bağlı böyük problemlərin astanasında olan ölkələr üçün çox vacib olduğunu vurğulayıb: "Şəxsən sizin iştirakınızla qəbul edilmiş bu qərarlar bütün bu ölkələr üçün çox böyük əhəmiyyət kəsb edir. Buna görə sizə öz təşəkkürümü bildirirəm". Liderlərin görüşündə Suriya və Ukrayna ilə yanaşı, Qarabağ məsələsi də müzakirə olunub.

**"Türkiyə artıq reallıq yaratdı. Bu reallıq nəticəsində biz görürük ki, Rusiya-Türkiyə dialoqunda həm də Qarabağ, Zəngəzur məsələləri müzakirə olunmaqdadır"**



**Politoloq Zaur Məmmədov deyib ki, indiyə qədər Putin və Ərdoğan arasında istər taxıl, istər Suriyanın şimalında gedən hadisələr, istərsə də Cənubi Qafqazla bağlı görüşlərin müsbət nəticələri olub. Ekspertin sözlərinə görə, Putin-Ərdoğan arasında Soçidə görüşün keçirilməsi çox əhəmiyyətlidir:** "Birincisi ona görə ki, dünyada ərzaq böhranı gözlənilir. Belə bir vaxtda Ukraynada hadisələrin gələcək nizamı və ərzaq böhranı ilə bağlı tədbirlərin nədən ibarət olacağı müzakirə predmeti ola bilər. Unutmayaq ki, bu gün Ukrayna və Rusiya ilə eyni siyasi dili danışa bilən ölkələr sırasında bir ölkə var, o da Türkiyədir. Dünyanın heç bir ölkəsi Türkiyə kimi Rusiya ilə Ukrayna arasında dialoq, sabitliyin yaranmasında maraqlı və əsas aktor rolunda çıxış etmir". Z.Məmmədov bildirib ki, Rusiya Cənubi Qafqazdakı proseslərə 200 ildir ki, heç bir dövləti buraxmırdı. Hətta İranla belə Qarabağda, Şərqi Zəngəzurda, işğal edilmiş Qərbi Zəngəzur bölgəsində və digər bölgələrdəki prosesləri müzakirə etmirdi: "Lakin Türkiyə artıq reallıq yaratdı. Bu reallıq nəticəsində biz görürük ki, Rusiya-Türkiyə dialoqunda həm də Qarabağ, Zəngəzur məsələləri müzakirə olunmaqdadır. Son hadisələr fonunda Azərbaycanın tələbləri məlumdur. Bizim üçün vacib məqam ondan ibarətdir ki, üçtərəfli bəyanatın əsas aktoru sayılan Rusiya Azərbaycanın yanında yer alaraq, ermənilərin sərsəm hərəkətlərinə qarşı adekvat qiymətləndirmə aparsın, Laçın yolu, erməni hərbi birləşmələrilə bağlı Ermənistana verilən ultimatumda Azərbaycanın və Türkiyənin yanında çıxış etsin".

**İsmayıl**

# Laçında sıldırım qayalıqlardan qaya parçası qopub

## Hadisə zamanı iki əsgərimiz dünyasını dəyişib



**Dünən Laçın rayonunda çətin relyefli ərazidə xidməti döyüş tapşırığını yerinə yetirərkən sıldırım qayalıqlardan qopan qaya parçası Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Samir Səməd oğlu Xudiyev və əsgər Əliyev Tahir Çingiz oğlunun üzərinə düşüb. Nəticədə əsgər Samir Xudiyev aldığı bədən xəsarətlərindən hadisə yerində vəfat edib**

Əsgər Tahir Əliyev isə müxtəlif bədən xəsarətləri alıb və hospitala yerləşdirilib.

Lakin həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb.

Müdafiə Nazirliyi məlumatı təsdiqləyib.

Azərbaycan Ordusunun Laçın rayonunda həlak olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Xudiyev Samir Səməd oğluna və əsgər Əliyev Tahir Çingiz oğluna şəhid statusu veriləcək.

*Mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikasının azadlığı, süverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, milli təhlükəsizlik orqanlarında döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilən şəxslər şəhid hesab edilirlər.*

# Türkiyə yaratdı, biz də yaradaq

## Dezinformasiyalarla Mübarizə Mərkəzi Azərbaycana da vacibdir



**Türkiyədə Dezinformasiyalarla Mübarizə Mərkəzi yaradılıb. Bu barədə ölkənin Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun tviter səhifəsində yazıb. Onun sözlərinə görə, İdris Kardaş mərkəzin koordinatoru təyin olunub.**

Altun bildirib ki, məqsəd Türkiyəyə qarşı aparılan sistemli dezinformasiya kampaniyalarına qarşı mübarizə aparmaqdır.

*Media eksperti Azər Həsrət "Şərq"ə açıqlamasında deyib ki, ayrıca bir qurumun yaradılması problemi kökündən həll etmək üçün yetərli deyil. Onun sözlərinə görə, sosial media dövründə yaşayırıq və burada hər kəs istədiyi platformada istədiyini yaza bilir:* "Belə ortamda yanlış informasiyaların yayılması ehtimalı yüksəkdir. Bəzən bunu qəsdən edirlər, bəzən isə bilmədən dezinformasiya yayırlar. O səbəbdən yanlış məlumatların yayılmasının qarşısını birdəfəlik almaq qeyri-mümkündür. Amma ayrıca mərkəzin yaradılması özlüyündə informasiyaları təhlil etmək, onların məqsədli şəkildə yayılıb-yayılmamasını müəyyənləşdirmək, qaynaqlarını araşdırmaq baxımından faydalı ola bilər. Bilirsiz ki, dezinformasiyanı bir qayda olaraq konkret mərkəzlər istehsal edir və dövriyyəyə buraxır. Məsələn, Azərbaycanın ətrafında yerləşən ölkələr - Rusiya, İran, Ermənistan ölkəmizə qarşı mütəmadi dezinformasiya yaymaq üçün xüsusi xidmət göstərirlər, canfəşanlıq edirlər. Belə məqamları aşkarlamaq və qarşısını almaq üçün müəyyən addımlar atıla bilər. Təkrar edirəm, ümumilikdə məsələni birdəfəlik həll etmək mümkün görünməsə də, ən azından informasiyaları nəzarət və müşahidə altına almaq baxımından belə bir təşəbbüs təqdirəlayiqdir".

**İsmayıl Qocayev**

# Müdafiə Nazirliyi pandemiyanı nəzərə aldı

## Andiçmə mərasimində hərbçilərin valideynləri ilə görüşləri məhdudlaşdırılıb



**Müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına əsasən, avqustun 7-də Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçiriləcək.**

"Şərq" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, andiçmə mərasimləri Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrində rituala uyğun olaraq təşkil ediləcək, gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz verəcəklər.

Son günlər ölkədə COVID-19 virusuna yoluxma sayında artımın müşahidə edildiyi nəzərə alınaraq hərbi qulluqçuların sağlamlığının qorunub saxlanılması məqsədilə andiçmə mərasimlərində hərbi hissələrə giriş-çıxış, mədəni-kütləvi tədbirlərin keçirilməsi, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların valideynləri və yaxınları ilə görüşləri məhdudlaşdırılıb.

Bütün bunları nəzərə alaraq hərbi qulluqçuların valideynləri və yaxınlarının andiçmə mərasiminə qatılmamalarını, vətəndaşlarımızı ordumuzda tətbiq olunan tibbi təminat tədbirlərini anlayışla qarşılamalarını xahiş edirik. İctimaiyyətə əlavə məlumat veriləcək.

İsmayıl Qocayev



# Ayıq-sayıq olmalıyıq

## “Hey, ingilislər, sayıqlığınıza kölgə düşürdünüz bu olaya gec qalmaqla”

**Avqustun 4-ü axşam saatlarında bir neçə radikal ünsür Londonda Azərbaycan səfirliyinə hücum edib. Sosial mediada yayılan video görüntülərdə bir neçə naməlum şəxsin Londonda Azərbaycan səfirliyinin yerləşdiyi binanın balkonuna çıxdığı, dini şüarlar qışqırdığı, pəncərə və divarlarda ərəbcə yazılar yazdıqları əks olunur. Video kadrlarda bir nəfərin balkonda sancılan Azərbaycan bayrağını çıxarıb tulladığı, yerinə ərəbcə sözlər yazılmış mavi bayraq asdığı da görünür. Yerli polisin müdaxiləsindən sonra qrup üzvləri binadan çıxarılıb və saxlanılıb.**

Böyük Britaniyanın ”Metro” qəzeti səfirliyə hücum edən şəxslərin ”Mehdinin nökərləri” Birliyinin üzvləri olduğunu yazıb. Londonda məskunlaşan ”Mehdinin nökərləri” Birliyinin saytında bildirilib ki, onların məqsədi ”İmam Mehdinin zühuruna hazırlaşan müsəlmanları birləşdirməkdir”. Küveyt əsilli olduğu deyilən bu qruplaşma 2008-ci ildə Londonda yaradılıb. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi Azərbaycanın London səfirliyinə daxil olan ”etirazçıların hərəkətlərini pisləyib”.

**“Hadisə nəticəsində səfirliyin əməkdaşları xəsarət almayıb”**

Azərbaycan Xarici İşlər Nazirliyi hadisəni ”bir qrup radikal dini dəstə”nin hücumu və ”vandalizm aktı” kimi qiymətləndirib. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi yaydığı bəyanatda bildirib ki, polis binanın içərisindəki səfirliyin əməkdaşlarını təhlükəsiz şəkildə təxliyə edib. Daha sonra etirazçıları oradan uzaqlaşdırıb və 8 nəfər həbs edilib: ”Böyük Britaniya ölkədəki diplomatik nümayəndəliklərin qorunmasına zəmanət vermək öhdəliyinə ciddi yanaşır və polis müvafiq təhlükəsizlik tədbirlərinin görülməsini təmin etmək üçün Azərbaycan səfirliyi ilə əlaqə saxlayır. Hadisə nəticəsində səfirliyin əməkdaşları xəsarət almayıb. Hadisə yerli hüquq-mühafizə qurumları tərəfindən araşdırılır. Araşdırmanın nəticələri ilə bağlı əlavə məlumat təqdim ediləcək. Vyana Konvensiyasına uyğun olaraq, diplomatların və diplomatik binaların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı xəbərdarlıq tərəfimizdən diplomatik kanallar vasitəsilə Böyük Britaniya qurumlarının diqqətinə çatdırılıb”.

**“Diplomatlarımız təhdid və təhlükə altında çalışırlar”**

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov tviterdə yazıb ki, Londonda yerləşən radikalların səfirliyə hücumu qəbuledilməz və barbarcadır: ”Bu, diplomatik binaların toxunulmazlığı prinsipinin birbaşa pozulmasıdır. Hazırda Bakıdayam və həmkarlarımızın təhlükəsizliyinə olan təhdidlərə baxmayaraq, təhlükəsiz olduqlarını görməkdən məmnunam”. Səfir qeyd edib ki, səfirlik əməkdaşları təhdidə rəğmən fəaliyyətlərini davam etdirirlər: ”Səfirlik rəsmiləri də daxil olmaqla, vətəndaşlarımızın təhlükəsizliyi bizim əsas prioritetimizdir. Londonda olan azərbaycanlı diplomatlar təhdid və təhlükə altında belə Azərbaycanın Böyük Britaniyadakı səfirliyindəki fəaliyyətlərini davam etdirirlər”.

**“Londondakı səfirliyimizə hücum dinə yaraşan hadisə deyil”**

**Qafqaz Müsəlmanları İdarəsi Qazilər Şurasının üzvü Hacı Surxay Məmmədli deyib ki, Londondakı səfirliyimizə hücum dinə yaraşan hadisə deyil:** ”Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə edilən hücum insanların dini inancına zərbədir”. O bildirib ki, diplomatik nümayəndəliyə qarşı vandalizm insanların narazılığına səbəb olub: ”Sözsüz ki, bu hallar hansısa bir təxribatçı qrupun din adından yalan şüarlar səsləndirməsinin nəticəsidir. Baş verənlər qəbuledilməzdir. Bu cür fikirlərin, şüarların ifadə edilməsi insanlığa böyük zərbədir. Mən bu hadisəni qətiyyətlə pisləyirəm və bunu yolverilməz sayıram”. Din xadimi qeyd edib ki, Azərbaycan bayrağının yerə atılması heç bir dini əqidəyə yaraşan hadisə deyil: ”Çünki Azərbaycan bayrağının uğrunda on minlərlə vətən oğlu qəhrəmancasına vuruşub, qan töküb, şəhid olub. Belə bir addım heç bir dinə, əqidəyə yaraşan hadisə deyil. Bu hadisə eyni zamanda, bizim dövlətçiliyimizlə, insani dəyərlərimizlə ziddiyət təşkil edir”.

**“Hər kəs Azərbaycan səfirliyinə hücumu qəti şəkildə pisləməlidir”**

**Məşədi Dadaş məscidinin imamı, ilahiyyatçı Hacı Şahin Həsənli deyib ki, özünü müsəlman sayan hər kəs Azərbaycan səfirliyinə hücumu qəti şəkildə pisləməlidir:** ”Hər zaman müsəlman dünyasında birliyə və əməkdaşlığa yönəlik müsbət tendensiya yarananda dini radikalizm meydana çıxıb. Müsəlman ölkələrində özlərinə xalq dəstəyi tapa bilməyən, fəaliyyətlərinə qadağa qoyulan bu marginal və radikal dəstələr xaricdə məskunlaşıblar. Onlar xarici xüsusi xidmət orqanlarının əlində oyuncağa çevrilib destruktiv fəaliyyətlərinə orada davam ediblər. Belə dəstələrdən biri Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə hücum edib. Dini şüarlarla bir səfirliyə hücum etmək, uğrunda minlərlə müsəlman gəncin canını fəda etmiş bayrağa hörmətsizlik etmək elə islam dəyərlərinə sayğısızlıqdır. Hədəf nədir? Ölkəmizə, xalqımıza qarşı mənfi rəy formalaşdırmaq, dini zəmində dözümsüzlük və münaqişə alovlandırmaqdır. Vaxtı ilə bu dəstələr müxtəlif qulaq oxşayan şüarlarla Azərbaycanda da kök salmaq istəsələr də, sosial baza toplaya bilmədilər. İndi isə əsl simalarını ortaya qoydular. Radikallığın dini olmur, bu bir mənəvi mərəzdir”.

**“Səfirliyə hücum zamanı polis öz vəzifələrini yerinə yetirməyib”**

**Böyük Britaniyalı jurnalist Neil Vatson deyib ki, Londonda Azərbaycan səfirliyinə radikalların hücumu zamanı polisin reaksiyası çox gec və qeyri-kafi olub. O bildirib ki, polis bir dövlət orqanı olaraq, Böyük Britaniyada yaşayan və işləyən hər kəsə qayğı göstərməyə borcludur:** ”Polis, həmçinin bütün səfirlikləri və diplomatları qorumaq məsuliyyəti daşıyır. Bu, faktiki olaraq Azərbaycana hücum idi. Fikrimcə, polisin reaksiyası çox gec və qeyri-kafi olub və onlar öz vəzifələrini yerinə yetirməyiblər”. Vatson qeyd edib ki, radikal qrupun üçüncü şəxslər tərəfindən təhrik olunma ehtimalı var və bu həm də kəşfiyyat xidmətlərinin islam terrorizmi ilə bağlı uğursuzluğa düçar olduğunu göstərir.

**“Radikallara bütün fitvaları Şirazi verir”**

**Kriminalist İlqar Altay deyib ki, Londonda səfirliyimizə ”hüseynçi” radikalların basqınının eynisi 2011-ci il 28 noyabr tarixdə Tehrandakı Britaniya səfirliyinə qarşı törədilib. O bildirib ki, təsadüfən, İranda, yazar Rafiq Tağının qətlini araşdırarkən bu hadisənin canlı şahidi olub:** ”Tehranda ayrı-ayrı zamanlar İran qəzəbləndiyi müxtəlif ölkələrin səfirliklərinə qarşı edilib. İndiki hadisə ilə bağlı suallar yaranır. Britaniyada fəaliyyət göstərən, Küveytdə qurulan, İran hüseynçilərindən fərqli bir radikal qrupun tanımadığı və heç vaxt problemi, əlaqəsi olmadığı Azərbaycanla nə işi? Bu, ”İmam Mehdinin mücahidləri Birliyi” təşkilatının bizim ölkədə bir nəfər üzvü varmı? Bu dini təşkilatın qurucusu ayətullah Sadiq Şirazidir. Bu şəxs, Xamenei ilə birgə 1979-cu il İran inqilabında Xomeyninin xidmətində olublar, dost olublar. Şirazi indi də İranda, Qumda oturur və Britaniyadakı bu tip ardıcıllarını, radikal ekstremistləri idarə edir. Təbii ki, onlara bütün fətvaları Şirazi verir. Adətən, təxribat, ya terroru üzərinə götürən istənilən radikal təşkilat dərhal etdiyinin motiv, məqsədi və tələbini də yerindəcə deyir. Bunlar isə təxribatı üzərinə götürəndən saatlarca sonra motivi deyiblər ki, guya, Azərbaycanda hüseynçiliyə qarşı nəsə problem yaradılıb. Deməli, bu təşkilat aksiyanı törədən an ideya motiv, məqsədsiz olub. Yəni sadəcə, icraçılıq edib, sifarişlə və hadisədən də xeyli sonra oturub fikirləşiblər ki, nə motiv desinlər”.

**“Bakıda hansısa qrup hansısa səfirliyə belə hücum edə bilərdimi?**

**Siyasi şərhçi Azər Həsrət də deyib ki, Londondakı səfirliyimizə bir qrup beynipozuq şəxsin dini təəssübkeşlik adı altında etdiyi hücum Azərbaycanı içəridən qarışdırmaq istəyənlərə fürsət verməməlidir.** Ekspert vurğulayıb ki, baxırıq ki, bəziləri bu olayı bəhanə edərək islama, özəlliklə də şiəliyə qarşı təhqir kampaniyası aparırlar: ”Elə bu da bizi içəridən qarışdırmaq istəyən İrana, dünən səfirliyimizə hücum edənlərə lazımdır. Belə etmək olmaz. Əgər kimsə haradasa imam Mehdinin adı altında cinayət törədirsə, buna məzhəb nə etsin, din nə etsin? Azərbaycan bütün dinlərə və məzhəblərə tolerant yanaşan, onların ardıcılları üçün hər cür şərait yaradan dünyəvi dövlətdir. Kiminsə cinayət əməlinə görə bir dini, yaxud məzhəbi hədəfə almaq doğru bir şey deyil. O baxımdan diqqətli və həssas olmalıyıq. Özəlliklə də bu dönəmdə. Bir tərəfdə İran, bir tərəfdə Rusiya, bir tərəfdə Ermənistan Azərbaycanı həm də bu yöndən vurmaq üçün durmadan çalışırkən, niyə onlara bəhanə verək? Hadisənin Londonda olması da kimsəni çaşdırmasın. İran fars-molla rejiminin təkcə Londonda deyil, dünyanın hər yerində belə ehtiyat bombaları var. Hə, səfirliyə hücum edən qrupun İran hakimiyyətinə müxalif olduğunu deyirsiniz? O da gözdən pərdə asmaq üçündür, aldanmayaq. Amma öz aramızdır, Bakıda hansısa qrup hansısa səfirliyə belə hücum edə bilərdimi? Əsla mümkün deyil. Nə Azərbaycan dövləti, nə də Azərbaycan polisi və xüsusi xidmət orqanları belə bir şeyə yol verməzlər. Hey, ingilislər, sayıqlığınıza kölgə düşürdünüz bu olaya gec qalmaqla”.




# “Sputnik"dən istefa verən redaktorlar rusa boyun əymədi

**Qulu Məhərrəmli:** “Çox maraqlı presedentdir. Təəssüf ki, digər saytlarda da xeyli yalan informasiyalar dərc olunur. Həmin məlumatlara qarşı da sayt əməkdaşlarının etirazı çox vacibdir”

**Elçin Şıxlı:** “Bacarıqları çərçivəsində onları işlə təmin etməliyik. Bunun üçün kifayət qədər redaksiyalarımız var”

**”Sputnik Azərbaycan”ın rus dili versiyasının buraxılış redaktorları ”Qisas” əməliyyatı zamanı Azərbaycanın atəşkəsi pozduğunu iddia edən Rusiya Müdafiə Nazirliyinin məlumatını verməkdən imtina edərək dünən tam tərkibdə istefa veriblər. 4 redaktor bu barədə sosial şəbəkədə məlumat yayıb.**

Zülfiyə Quliyeva, Cəmilə Əfəndiyeva, Elena Starostina, Gülzar Mustafayeva feysbuk paylaşımlarında Azərbaycan vətəndaşları olaraq ”Sputnik”də Azərbaycanın maraqlarını bacardıqca qoruduqlarını, buna gücləri çatmadıqda isə istefa vermək məcburiyyətində qaldıqlarını yazıblar. ”Sputnik Azərbaycan” saytından istefa verən buraxılış redaktoru Gülzar Mustafayeva deyib ki, onlardan ölkəmizin mövqeyinə qarşı məlumatın getməsini tələb ediblər: ”Detallar barədə danışmaq istəmirəm. Çünki biz işə qəbul olunanda öhdəliyə imza atmışıq və bunları danışmaq ixtiyarım yoxdur. Sadəcə onu deyə bilərəm ki, bizdən Azərbaycanın mövqeyinə qarşı məlumatın getməsini tələb etdilər. Biz də dörd redaktor - Zülfiyə Qurbanova, Cəmilə Əfəndiyeva, Yelena Starostina və mən bununla razılaşmayıb istefa verdik”. Xatırladaq ki, ”Sputnik Azərbaycan”ın ölkəmizdə fəaliyyəti ilə bağlı narazılıqlar mövcuddur. Dəfələrlə bu qurumun Azərbaycan əleyhinə, dövlətimizin mövqeyinin əksinə addımlar atması əsas gətirilərək portalın fəaliyyətinin qadağan olunması tələb olunub.

**Media eksperti, professor Qulu Məhərrəmli ”Şərq”ə bildirib ki, ”Sputnik Azərbaycan”ın azərbaycanlı əməkdaşlarının yalan və əsassız məlumata etiraz edərək istefa vermələri müsbət hadisədir. Professorun sözlərinə görə, o, bunu ilk növbədə peşə maraqlarının müdafiəsi kimi qəbul edir:** ”Bu həm də yalana qarşı etirazdır. Diqqət yetirməli olduğumuz digər məqam ”Sputnik”in Rusiyaya bağlılığı və Rusiya Müdafiə Nazirliyinin bölgəyə aid olan yanlış məlumatları yaymasıdır. Ümumiyyətlə, 10 noyabr 2020-ci ildən sonra Qarabağda Azərbaycan əleyhinə gedən proseslərlə bağlı ən qızışdırıcı və təxribat xarakterli məlumatları məhz Rusiya Müdafiə Nazirliyi yayıb. Təəssüf ki, bu yalan məlumatlar bir çox hallarda ”Sputnik”in səhifələrində gedib. Ancaq müəyyən mərhələdən sonra insanlar hər şeyin ağ yalan olduğunu və məqsədli şəkildə Azərbaycan əleyhinə təxribat edildiyini anlayırlar. Məncə, bu, düşündürücü faktdır. Biz bundan bəzi nəticələr çıxartmalıyıq”.

Q.Məhərrəmli vurğulayıb ki, həmkarlarımızın atdığı addım peşə maraqlarına xidmət baxımından çox vacib addımdır: ”Bu insanlar yalan məlumat yaymağı öz şərəf və ləyaqətlərinə sığışdırmayıblar və bunun jurnalist peşəsinə zidd olduğunu deyiblər. Çox maraqlı presedentdir. Təəssüf ki, digər saytlarda da xeyli yalan informasiyalar dərc olunur. Həmin məlumatlara qarşı da sayt əməkdaşlarının etirazı çox vacibdir. Bizim üçün ilk növbədə peşə maraqlarını gözləməkdir. Əgər yayılan məlumatlar Azərbaycanın maraqlarına uyğun deyilsə və biz buna etiraz etməyi bacarırıqsa, bunun özü ciddi əxlaqi-mənəvi yanaşmadır. O mənada 4 redaktorun addımı təqdir olunmalıdır”.

**Məsələyə münasibət bildirən Azərbaycan Jurnalistlər Birliyinin sədri, ”Ayna- Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı isə bildirib ki, sözügedən saytın ölkəmizdə fəaliyyəti, dövlətlərarası müqavilə əsasındadır:** ”Bu sözləşmə də istədiyimiz zaman pozulası məsələ deyil. İstefa verən redaktorlar arasında Elena Starostina Fövqaladə Hallar Nazirliyinin işçisi olub. İqtisadiyyyat üzrə peşəkar mütəxəssisdir. Deməli, vəziyyət nə yerə gəlib çıxıb ki, hətta o da işdən ayrılıb.

Başa düşürəm, hər kəsin ailəsi var, hamı dolanmalıdır. Oradan verilən məvacib də az deyil.

Belə bir məqamda artıq 4 nəfər işindən vaz keçirsə, qalanlar da həmrəylik göstərib, saytın fəaliyyətini zəiflətmək, dayandırmaq üçün istefa verməlidirlər. Eyni zamanda həmin saytda işləməkdən imtina edən jurnalistlərə də yiyə çıxmalıyıq. Bacarıqları çərçivəsində işlə təmin etməliyik.

Bunun üçün kifayət qədər redaksiyalarımız var. Dövlətlərarası müqavilənin də yəqin ki, zamanla pozulmasına şahid olacağıq”.

**İsmayıl Qocayev**

# Koronavirus birdəfəlik yoxa çıxacaq

## Virusun orqanizmdə lövbər salıb qalması ehtimalı çox aşağıdır

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov hazırda Azərbaycanda epidemioloji vəziyyətin qənaətbəxş və nəzarət altında olduğunu deyib.**





Qonşu ölkələrin statistik məlumatlarına diqqət çəkən infeksionist deyib ki, hazırda infeksiyaya gündəlik yoluxma sayı Gürcüstanda, Rusiyada, Türkiyədə və İranda dəfələrlə artıb: ”Azərbaycanda da son zamanlar yoluxma sayında artım müşahidə olunur. Əksər məhdudiyyətlərin xeyli vaxtdır ki, aradan qaldırılmasına baxmayaraq, hazırda ölkəmizdə epidemioloji vəziyyət qənaətbəxşdir və nəzarət altındadır. Bir neçə ay bundan əvvəl qeyd etmişdik ki, bu tip infeksiyalar payıza doğru aktivləşir. Unutmayaq ki, zaman keçdikcə əldə olunmuş kollektiv immunitet zəifləyir. Pandemiyanın hər yeni dalğası virusun daha sürətli və immun nəzarətindən asan yayına bilən mutant variantları törədir. Bundan əlavə, əksər qadağaların aradan qaldırılması virusun yayılması üçün münbit şərait yaradır. Ona görə də ölkəmizdə yoluxma halının payızda yüksəlməsi istisna deyil. Hazırda proses səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarət altındadır. Qeyd edim ki, pandemiya ərzində mənfi dinamikanın aradan qaldırılması ilə bağlı xeyli təcrübə toplanılıb. Yuxarıda qeyd etdiklərimdən əlavə, özümüzü qorumaq üçün birgə səy göstərməliyik”.

**Adil Qeybulla:** “Ciddi qapanmalara, sərt karantinə getməyə ehtiyac görmürəm”

Qeyd edək ki, koronavirus xəstəliyinin yayılmasından bəri dünyada virusun mənbəyi ilə bağlı bir sıra konspiroloji nəzəriyyələr irəli sürülüb. Bəzən bu nəzəriyyələr rəsmi şəxslər səviyyəsində səsləndirilib. Lakin bununla bağlı heç bir sübut ortaya çıxarılmayıb.

Bu dəfə də Rusiya Müdafiə Nazirliyi ABŞ-ın COVID-19-un yaranmasında əli olduğundan şübhələnir.

Rusiya Silahlı Qüvvələrinin Radiasiya, Kimyəvi və Bioloji Müdafiə Qüvvələrinin rəisi, general-leytenant İqor Kirillov jurnalistlər üçün keçirdiyi brifinqdə deyib ki, 2019-cu ildə - COVID-19-un ilk halları ortaya çıxmazdan əvvəl - ”Event-2019” təlimləri ABŞ-ın Hopkins İnstitutunda keçirilib. Təlimlərdə daha əvvəl məlum olmayan koronavirus epidemiyasına qarşı fəaliyyət məşq edilirdi. Təlimlərin əfsanəsinə görə, həmin koronavirus insanlara donuzlar üzərindən yarasalardan keçib. O əlavə edib ki, xəstəliyin qeyri-bərabər yayılması COVID-19-un süni şəkildə yaranmasından xəbər verir.

**Professor Adil Qeybullanın ”Şərq”ə açıqlamasına görə, yoluxma sayının artması infeksiyanın yavaş-yavaş sona çatmasının göstəricisidir.** Həkimin fikrincə, virus mutasiya etdikcə, onun uyğunlaşma xüsusiyyətlərindən biri yaşaması üçün yoluxuculuq qabiliyyətinin yüksək olmasıdır: ”Lakin yoluxma ilə yanaşı, virusun öldürücülük qabiliyyəti də xeyli aşağı düşüb. Belə olan halda virus yavaş-yavaş ya yoxa çıxır, ya da bizim gündəlik həyatımızda qalır. Hər halda onun orqanizmdə lövbər salıb qalması ehtimalı aşağıdır və bir gün ümumiyyətlə yoxa çıxacaq. Ona qədər isə yoluxma sayında artıb-azalmalar davam edəcək, sadəcə, virus bu dəfə əvvəlki kimi təhlükəli olmayacaq”.

Professorun sözlərinə görə, hər ehtimala qarşı yoluxma zəncirinin qırılması üçün karantin tədbirlərinə əməl etmək zərurəti yarana bilər və bura maska taxmaq da daxildir: ”Ola bilər ki, kütləvi tədbirlərin azaldılmasına, müəyyən qədər təmasların məhdudlaşdırılmasına ehtiyac yaransın, amma ciddi qapanmalara, sərt karantinə getməyə ehtiyac görmürəm”.

**Şəymən Bayramova**



# Ana südü yoxdursa...

## Naəlac qalanda körpələrə keçi südü vermək olar

Mələhət Rzayeva

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, pediatr Erkin Rəhimov Azərbaycanda ana südü ilə qidalanma səviyyəsinin aşağı olduğunu bildirib. Pediatr qeyd edib ki, süd verən analarda doğum sonrası depressiya riski çox aşağı olur, südvermə zamanı ifraz olunan hormon sayəsində uşaqlığın yığılması sürətlənir, eyni zamanda, südvermə qadınlarda döş xərçənginin qarşısını alır. Həkim əlavə edib ki, bəzən analar südünün az olmasından şikayətlənirlər:**

"Amma unutmaq olmaz ki, uşağın mədəsi çox kiçikdir. 10 milli qədər süd varsa belə bu, uşaq üçün olduqca faydalıdır. Bəzi miflər var ki, qeysəriyyə əməliyyatından sonra süd gəlmir. Bunun qeysəriyyəyə aidiyyəti yoxdur. Qidalanmaya gəldikdə isə çox yeməkdənsə, sağlam qidalanma və bol maye qəbulu tövsiyə olunandır". Erkin Rəhimov vurğulayıb ki, 1980-ci illərə qədər ana südü ilə yanaşı, uşaqlara su da verilirdi: "Lakin buna ehtiyac yoxdur. Yeni doğulmuş uşağın mədəsi tez genişlənir. Və doyma hissi tez yarana bilər. Beləliklə, uşaq yeməkdən imtina edə bilər. Ana südünün tərkibi 88 faiz sudan ibarətdir. Ana südünün tərkibində uşaq üçün lazım olan bütün vitaminlər var, təkcə D vitaminindən başqa. Bununla yanaşı, süni qida ilə qidalandırılan uşaqlara da su verməyə ehtiyac yoxdur".

Qeyd edək ki, ana südü ilə qidalanmanın aşağı səviyyədə olmasıyla bağlı narahatlıq bundan əvvəl də mütəxəssislər tərəfindən səsləndirilib. Mütəxəssislər hesab edir ki, körpələrin ana südü qidalanmasında hətta əldə edilən 50 faizədək artım da arzuolunan rəqəm deyil. Ana südünün faydası təkcə körpənin sağlam böyüməsiylə bitmir, körpəsinə ana südü verən, döşlə əmizdirən gənc anaları bir sıra təhlükələrdən, xəstəliklərdən qoruyur, ananın sağlamlığına müsbət təsir göstərir. Körpəni ana südü ilə qidalandırma qadınlarda doğuşdan sonrakı mümkün qanaxmaların, anemiyanın yaranma ehtimalını azaldır, süd vəziləri və yumurtalıqları müxtəlif şişlərdən qoruyur, ilk 6 ayda növbəti hamiləlik riskini azaldır. Ana südü ilə qidalanmaya mane olan əsas səbəblərin 98-99 faizi subyektiv (ana südünün çatışmazlığı), 1-2 faizi isə obyektiv səbəblər (hipoqalaktiya) təşkil edir.

**Pediatr Vaqif Qarayev də "Şərq"ə açıqlamasında körpə uşaqlar üçün ən məsləhətli qidanın ana südü olduğunu deyib:**

- Bu, birmənalıdır. Ana südü əvəzsizdir. Ananın südü varsa, süni uşaq qidalarından istifadə etmək absurddur. Süni qidalardan yalnız istisna hallarda, ananın südü ümumiyyətlə yoxdursa, körpə anasızdırsa və ona süd anası tapılmırsa, istifadə edilməlidir. Süni qidalar əslində bu məqsədə xidmət etməlidir, amma təəssüf ki, az qala hər gənc ana körpəsini ilk aylarda olmasa da, çox qısa zaman keçdikdən sonra, "südüm azdır, körpə ac qalır, doymur" deyərək süni qidalarla qidalandırmağa başlayır. Düzdür, ananın südü ola-ola, süni qida təklif edən həkimlərimiz var. Bu isə artıq mənəvi cinayətdir. Xüsusən də doğum evlərində südü olan analara belə, süni qidalar məsləhət görürlər. Buna səbəb də həkimlərlə firmaların anlaşmasıdır. Bunu bütün ölkə bilir, gizlətməyin heç bir mənası yoxdur. Amma xoşbəxtlikdən bu tendensiya sistem şəklini almayıb. Gözüaçıq analarımız var ki, haqlı olaraq həkim "məsləhətinə" qulaq asmırlar. Axı ana südü ola-ola körpəni niyə süni qarışıqlarla qidalandırmalıdır?! Elə analar da var ki, özləri körpələrini qidalandırmaqdan imtina edirlər. Belə halda isə ananın daşıdığı məsuliyyət həkiminkindən qat-qat üstündür. Sözün açığı, südü olduğu halda, bunu uşağından əsirgəyən qadına mən ana demirəm. Yalnız o halda uşağa süni qida verilə bilər ki, o, ana südü ilə doymur və ya ananın ümumiyyətlə südü yoxdur.

**V.Qarayevin sözlərinə görə, uşağın qidalanmasını doğulan gündən 1 yaşına qədər aybaay həkim təyin etməlidir:**

- Sözsüz ki, baza yemək həmişə ana südü qəbul olunur. Süd olmayanda isə baza yeməyi olaraq süni uşaq qidaları nəzərdə tutulub. Eyni zamanda, hər ay uşaq böyüdükcə ona əlavə qidalar da verilir ki, bu da ancaq həkim nəzarəti altında olmalıdır. Meyvə şirələri, yumurta sarısı, süzmə, bulyon və sair, bunun hamısını həkim təyin etməlidir. Kənd yerlərində, bölgələrdə bəzən körpəni keçi südü ilə qidalandırırlar. Keçi südünün tərkibi ana südünə çox yaxındır. Amma bu da ana südü deyil və onu tam əvəz edə bilməz. Naəlac qalanda keçi südü vermək olar. Hətta inək südü də verirlər, başqa çarə qalmayanda.

### Pediatr: "Uşağın qidalanmasını doğulan gündən 1 yaşına qədər aybaay həkim təyin etməlidir"

**Pediatr vurğuladı ki, ana südü ilə qidalanan körpələrin say azlığının əsas səbəblərindən biri anaların hazırlıqsızlığıdır:**

- Ailə planlanması deyilən bir şey var. Hansısa bir cütlük onlara sərf edən bir vaxtda dünyaya uşaq gətirmək istəyir. Onlar həm mənəvi-psixoloji, həm maddi baxımdan sərfəli bir vaxtı gözləyirlər. Cütlük bilir ki, dünyaya gələn uşaq ana südü ilə qidalanmalıdır və onlar mövcud olan bütün nüansları nəzərdən keçirir. Amma bizdə belə bir anlayışı normal qəbul etmirlər. Ailə qurulduqdan cəmi 3 ay sonra bütün ağsaqqal və ağbirçəklər uşağın olub-olmaması ilə bağlı müzakirələr aparırlar. Əslində isə gələcək ananı həm hamiləliyə, həm də ana olmağa hazırlamaq lazımdır. Burda isə ailə üzvlərinin, tibb personalının böyük rolu var. Gənc ana üçün hamiləlik bir başqa, doğuş bir başqa psixoloji basqıdır. Ümumiyyətlə, birinci doğuşdan sonra ilk günlərdə ananın südü az ola bilər və o demək deyil ki, ananın südü yoxdur. Bu işdə tibb personalını da günahlandırıram. Doğum evlərində anada süd olmayanda süni qidaya üstünlük verirlər, bu, düzgün yanaşma deyil. Psixoloji olaraq anaya kömək etmək lazımdır ki, qidasına, yuxu rejiminə fikir versin, gərgin həyat tərzi keçirməsin. Bəzi məqamları çıxmaq şərti ilə əksər hallarda ananı südvermə prosesinə hazırlamaq lazımdır. Çünki ana hazırlıqsızdır, o bilmir ki, uşağa necə qulluq etmək lazımdır. Əvvəlcə analar bunları bilməli və körpəyə lazımi şəkildə qulluq etməlidirlər.

# Bütün Laçın ovcumuzun içində və nəzarətimizdədir

## Qırxqız və Sarıbaba yüksəkliklərinin strateji əhəmiyyəti böyükdür



**Avqustun 3-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun bölmələrinə qarşı terror təxribatı törədib.**

Azərbaycan Ordusu həmin qanunsuz silahlı dəstələrə qarşı "Qisas" cavab əməliyyatı keçirib. Nəticədə Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra başqa yüksəkliklər azad olunub.

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə nəzarətə götürülən strateji yüksəkliklərin əhəmiyyətindən danışıb.** O qeyd edib ki, "Qisas" əməliyyatı ilə azad edilən yüksəkliklər Laçın rayonuna, oradan keçən Laçın dəhlizinə, eləcə də rusların nəzarətində olan digər ərazilərə vizual və atəş nəzarətini təmin edir: "Bundan başqa xatırlayırsınızsa, biz İkinci Qarabağ müharibəsinin əvvəllərində həm Talış, həm də Cocuqmərcanlı və bir sıra yüksəklikləri azad etdik. Bununla da Vətən müharibəsində ilk əks-hücum əməliyyatlarını məhz bu yüksəkliklərdən istifadə etməklə həyata keçirdik. Bu, qələbəmizdə əvəzsiz rol oynadı. Odur ki, bundan sonrakı mərhələlərdə keçiriləcək əməliyyatlarda indi azad edilən Qırxqız və Sarıbaba yüksəkliklərindən də lazımınca istifadə olunacaq".

**Ehtiyatda olan polkovnik Elxan Qəniyev vurğulayıb ki, Qırxqız və Sarıbaba bütün Qarabağ zonasındakı ən böyük yüksəkliklərdəndir:** "Hər iki yüksəklikdən baxdıqda Qarabağın digər əraziləri də açıq-aydın görünür. Ordumuza eşq olsun ki, hadisələrin belə cərəyan etdiyi bir vaxtda bu cür mühüm strateji uğura imza atıb. Əgər sözügedən yüksəkliklər ermənilər tərəfindən ələ keçirilsə idi, Kəlbəcər, Şuşa digər ərazilər də təhlükədə olacaqdı".

**Günəş Mərd**

# Ukrayna savaşı bitsə qızılın qiyməti aşağı düşəcək

## Həmişə müharibələrin gərginləşdiyi dövrdə qızıl investorlar üçün güvənli liman rolunu oynayır



**Qızılın qiyməti cüzi artaraq bir unsiya üçün 1800 ABŞ dollarını keçib. Birjalar ABŞ-da makrostatistik məlumatların açıqlanmasını gözləyir.**

**Nyu-Yorkun "Comex" birjasında qızılın dekabr fyuçersləri 0,07 faiz və ya 1,25 ABŞ dolları bahalaşaraq 1 unsiyası 1 808,15 ABŞ dollarına satılıb.**

İqtisadçı-ekspert Natiq Cəfərlinin "Şərq"ə açıqlamasına görə, həmişə müharibələrin gərginləşdiyi dövrdə qızıl investorlar üçün güvənli liman rolunu oynayır: "Etibarlı olaraq da kifayət qədər çox sayda sərmayəçi qızıla yatırım etməyə çalışır. Bu, əsasən, Rusiya-Ukrayna müharibəsi ilə əlaqəli olsa da, digər səbəblər də mövcuddur. Onlardan biri də dünyada inflyasiyanın güclənməsidir. Sərmayəsi olan insanlar inflyasiyadan qorunmaq üçün qızıla yatırım etməyə üstünlük verirlər. Bu trend yəqin ki, bir müddət, ən azından Rusiya-Ukrayna müharibəsi bitənə qədər davam edə bilər. Hələ ki, qiymət 2000 dollara çatmayıb. Müəyyən enişlər və qalxışlar olub. Lakin bu, təbiidir. Amma savaş sona çatsa və dünyada Mərkəzi Banklar faiz artırmağı sürətləndirsə, yenidən qızılın qiymətinin düşməsinin şahidi olacağıq".

İqtisadçının sözlərinə görə, daxili bazarda qiymətlər yüksəlsə də, alıcılıq qabiliyyəti düşüb. Yəni qızıl satışı həcmləri azalıb. Qiymətlər bahalaşdıqca satış səviyyəsi də enir. Ona görə də qızıl satıcıları çox da yüksək qiymət qoymaq istəmir.

**Şəymən**

# Azərbaycan hədəflərindən geri çəkilməyəcək

## Yaxın vaxtlarda Ermənistan silahlı birləşmələri Xankəndi və ətraf bölgədən çıxarılacaq



**Azərbaycan Ordusu Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı 3 avqustda antiterror əməliyyatı keçirib.**

"Qisas" əməliyyatı erməni terrorçuların məhv edilməsi və strateji yüksəkliklərin nəzarətə götürülməsi ilə nəticələnib. "Qisas" əməliyyatından sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində, o cümlədən dövlət sərhədində nisbi sakitlik yaranıb.

**Analitik Elçin Xalidbəyli ordumuzun həyata keçirdiyi "Qisas" antiterror əməliyyatının ölkəmiz üçün hərbi-siyasi və strateji əhəmiyyətindən "Şərq"ə danışıb:**

"Azərbaycan Ordusunun "Qisas" antiterror əməliyyatı olduqca ciddi hərbi-siyasi və strateji əhəmiyyət daşıyır. Rəsmi Bakı bu əməliyyatı keçirməklə öz geopolitik iradəsini yalnız Ermənistana deyil, həm də Cənubi Qafqaz regionunda maraqları olan supergüclərə diktə etdi. Rəsmi Bakı hər kəsə mesaj verdi ki, Azərbaycanın milli maraqlarını təmin etmək üçün heç bir radikal addımın atılmasından qətiyyən çəkinmir. Azərbaycanın Xankəndi və ətraf bölgəsində erməni separatçı-terrorçuları himayə edən Kremldə də indi artıq anlayırlar ki, rəsmi Bakı öz hədəflərini kimsənin maraqlarına güzəştə getməyəcək. Ona görə də Azərbaycanın haqlı tələblərini mütləq yerinə yetirmək lazım gəlir.

Bununla Ermənistan rəhbərliyi və erməni separatçıları da əmin oldular ki, Rusiya onları Azərbaycan Ordusundan qoruya bilmir. Çünki Azərbaycan Ordusu Xankəndi və ətraf bölgədə müvəqqəti dislokasiya olunan rus sülhməramlılara əhəmiyyət vermədən antiterror əməliyyatı keçirir. Və rəsmi Bakının tələbləri yerinə yetirilməsə, antiterror əməliyyatları bərpa oluna bilər".

**Siyasi şərhçi diqqətə çatdırıb ki, hazırda Ermənistan Azərbaycanın qarşısında təklənmiş olduğunu, erməni separatçılar isə müdafiəsiz qaldıqlarını anlayır:** "Yəni ermənilər hətta vərdişlərinə və xidmətlərinə uyğun olaraq, müxtəlif təxribatlar törətsələr belə son nəticədə Azərbaycanın diktə etdiyi şərtləri yerinə yetirməli olacaqlar. Böyük ehtimalla yaxın vaxtlarda Ermənistan silahlı birləşmələri Azərbaycanın Xankəndi və ətraf bölgəsindən çıxarılacaq. Buna paralel olaraq da silahlı erməni separatçı-terrorçu dəstələri də tərksilah olunacaq. Araik Arutyunyan və onun terrorçu yaxın ətrafı Azərbaycanın Xankəndi və ətraf bölgəsini həmişəlik tərk etmək məcburiyyətində qalacaq.

Əks halda, Azərbaycan Ordusunun növbəti anti-terror əməliyyatları Araik Arutyunyan və onun terrorçularının həbs edilməsi ilə nəticələnə bilər. Və buna nə rus sülhməramlılar, nə də ermənilərin digər beynəlxalq himayədarları qətiyyən əngəl törədə bilməz. Xankəndi və ətraf bölgə Azərbaycanın daxili məsələsidir. Beynəlxalq hüquqa görə, Azərbaycanın daxili işlərinə qarışması yolverilməzdir".

Analitikin sözlərinə görə, bundan sonra Cənubi Qafqazda geopolitik proseslərin məzmun və keyfiyyəti məhz Azərbaycan tərəfindən müəyyən olunacaq. İndi Azərbaycanın əhəmiyyəti ABŞ, Avropa Birliyi və elə Rusiya üçün də ciddi şəkildə artıb: "İndi beynəlxalq supergüclər NATO ölkəsi olan Türkiyənin hərbi müttəfiqi Azərbaycan ilə münasibətləri korlamaqda qətiyyən maraqlı deyil. Avropa Birliyinin Azərbaycanın enerji resurslarına olan ehtiyacını da nəzərə aldıqda, zaman və situasiya Ermənistanın əleyhinədir və Ermənistan bunu dəyişmək imkanında deyil".

**Günəş Mərd**

**Avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi bir qrup radikal dini dəstənin hücumuna məruz qalıb.**

Səfirliyin binasına daxil olaraq, vandalizm aktı törədən qrup üzvləri binanın eyvanında dini bayraqlar qaldıraraq, radikal dini şüarlar səsləndiriblər. Azərbaycan bayrağını endiriblər. Yerli polisin müdaxiləsindən sonra qrup üzvləri binadan çıxarılıb və saxlanılıb. Hadisə nəticəsində səfirliyin əməkdaşları xəsarət almayıb. Hadisə yerli hüquq-mühafizə qurumları tərəfindən araşdırılır. Araşdırmanın nəticələri ilə bağlı əlavə məlumat təqdim ediləcək.



# Səfirliyə hücumun qarşısını almaq olardı

## Britaniya kəşfiyyatının hadisədən xəbəri olmaya bilməzdi

Vyana Konvensiyasına uyğun olaraq, diplomatların və diplomatik binaların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı xəbərdarlıq tərəfimizdən diplomatik kanallar vasitəsilə Böyük Britaniya qurumlarının diqqətinə çatdırılıb. Daha sonra ölkəmizin London səfirliyində bayrağımız yenidən bərpa edilib. London polisinin verdiyi xəbərə görə, hadisə ilə bağlı 8 nəfər saxlanılıb.

**Siyasi analitik Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, bu dəstə əsasən, Küveyt, ərəb şiələrindən ibarətdir:** "Küveytdə azlıq təşkil edən şiələr ölkənin özündə də qadağan olunub. Daha sonra özlərinə iranlı Ayətullah Məkarim Şirazini rəhbər olaraq gördülər. İran hökumətinə müxalifdirlər. Sırf bu səbəbdən rəsmi Tehranda da çox müsbət qarşılanmayan bir qrupdur. Hətta orada həmin qüvvələrə adətən London şiələri deyirlər. Çünki əsl mərkəzləri Böyük Britaniyadadır. İngiltərədə ticarət mərkəzləri, market, digər biznes şəbəkələri və "Fədək" adlı telekanalları var. Bundan əvvəl İran səfirliyinə qarşı eyni formada etiraz aksiyası keçiriblər. Bayrağını endiriblər. İndi də Azərbaycanın dövlət rəmzinə qarşı hörmətsizlik ediblər. Bu dəstə şimal qonşuluğumuzun özündə də çoxdur. Ən azından rəsmi səviyyədə xoş münasibət bəslənilməyən bir qrupdur. Həmin qüvvə daha çox Londonda dəstəklənir. Britaniya kəşfiyyatının hadisədən xəbəri olmaya bilməzdi. Nəyə görə, bununla bağlı bir tədbir görməyib və ya Azərbaycan tərəfini məlumatlandırmayıb?!"

**T.Rzayevin qənaətincə, hücumun qarşısını almaq və ya xəbərdarlıq etmək mümkün idi:** "Digər tərəfdən təşkilatın rəhbəri deyilənə görə, Ayətullah Məkarim Şirazinin qohumu ilə evlidir. Dəstənin İranla da əlaqələri araşdırılmalıdır. İndiki rejimə, Ayətullah Xomeyniyə müxalif görünsələr də, Şirazi ilə qohumluq əlaqəsi olsa da, fars millətçilərinin burada bir rolu mövcuddurmu? Bu da təhlil edilməlidir. Çünki rəsmi olaraq, həmin qrup Azərbaycanda şiə hüquqlarının pozulmasını səsləndirir. Həmçinin azərbaycanlı bir qadın divarlara "Ya Hüseyn" yazıb, yenidən pozub, yazmaqla bağlı bir çıxış edib. Həmin insanın şəklini də səfirliyə vurdular. Əsas diqqət çəkən məqam odur ki, Azərbaycan səfirliyi niyə bu qədər müdafiəsiz qalıb? Deyək ki, mühafizəçi çoxluq qarşısında tab gətirmədi, niyə səfirlikdə ən azından ölkə bayrağının təhlükəsizliyi təmin olunmayıb?! Bu məsələlər üzərində çox dayanılmalıdır. Məsul şəxslər mütləq cavab verməlidirlər".

**Sücayət Mehti**

# "Qisas" ayıldıb

## Paşinyan gec-tez reallıqlarla barışacaq



**"Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında çıxış edərək Qarabağda ölkəsinin ordusunun olmadığını bildirib". Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Paşinyanın bəyanatı Azərbaycan Ordusunun avqustun 3-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə erməni separatçılara qarşı keçirdiyi antiterror əməliyyatlarına görə öz yaxasını kənara çəkmək məqsədi daşıyır:**

"Bunu İrəvanın separatçıların silahsızlaşdırılması üçün Azərbaycanın tezislərinə və tələblərinə verilən həyəcanlı reaksiya kimi dəyərləndirmək olar. Nikol Paşinyan basqılarla siyasi hakimiyyətini saxlayır. Ona olan təzyiqlər imkan verir ki, hiyləgərcəsinə özünə haqq qazandırsın və məsuliyyət yükünü azaldan təəssüratlar yaratsın. Paşinyan Rusiya sülhməramlılarından da narazılıq ifadə edib. Görünür ki, Kreml Ermənistanın müraciətlərinə məhəl qoymur və onu 10 noyabr bəyanatını icra etməyə çağırır.

Paşinyan Azərbaycanla növbəti təmaslar öncəsi özünü bicliyə vuraraq ikibaşlı tezislər səsləndirir. Paşinyan deyir ki, Azərbaycan 10 noyabr bəyanatını ləğv etməyə çalışır. Onun sözlərinə görə, Azərbaycan "Dağlıq Qarabağ"ın varlığını tanımalıdır. Həmçinin, Azərbaycan təmas xəttini pozmamalı, Laçın dəhlizi ilə bağlı razılaşmaya əməl etməlidir. Paşinyanın bəndlərinin hamısı siyasi həyasızlıq nümunəsidir və hər bir bəndin aydın cavabı var. Birinci, Azərbaycan 10 noyabr bəyanatının icrasını pozmur. Əksinə, onun həyata keçirilməsində Ermənistanın üzərinə götürdüyü kapitulyant öhdəlikləri yerinə yetirməyə çağırır. İkinci, "Dağlıq Qarabağ" adlı vahid yoxdur, Prezident İlham Əliyev 2021-ci ilin iyulun 7-də imzaladığı fərmanla Qarabağ İqtisadi Zonası yaradılıb. Bununla da Dağlıq Qarabağın üzərindən çəkilən xəttə hüquqi əsas verilib".

### Ermənistan sərhəd və sərhədlə bağlı digər məsələlərdə Azərbaycanın tələblərinə boyun əyəcək

**Ekspert vurğulayıb ki, "Dağlıq Qarabağ" ifadəsi münaqişə dövrünün terminidir:** "Postmüharibə dövründə isə bu anlayış həm nəzəri, həm də təcrübi olaraq tarixin zibilliyinə göndərilib. Olmayan bir subyektin varlığını tanımaq çağırışı qədər diletant yanaşma ancaq Paşinyan və onun kimilərə xas ola bilər. Təmas xətti də münaqişə periodunun lüğət fondunda işlənib, konflikt bitdiyinə görə, təmas xətti də qalmır. Yaxşı olar ki, Paşinyan 10 noyabr bəyanatını açıb yenidən oxusun. Həmin bəyanatın 6-cı bəndi Gorus-Xankəndi yoluna alternativ çəkilməsi ilə bağlıdır. Həmin bəyanatda olmasa da, əldə olunan razılaşmaya əsasən, bunun üçün 3 il müddət qoyulur. Üstəgəl, elə Ermənistan özü Laçın yoluna alternativ marşrutun öz ölkəsi ərazisində tikintisinə başlayır. Paşinyan "Qarabağda Ermənistan ordusu yoxdur" deməklə, Azərbaycana "gedin vurun, olan-qalan separatçıları da öldürün" ismarışını ötürdüyünü anlamır. Bəlkə də anlayır və ona elə bu lazımdır. Paşinyanın beş istiqamətdəki sərsəmləmələri başdan-ayağa təhrifedici mahiyyətdədir. Nikol bununla 3 avqustda baş verən toqquşmanın onda yaratdığı qorxunu dilə gətirir və erməni cəmiyyətini gələcək güzəştlər üçün yetişdirir. Onun daha sonra "Ermənistan Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqəni təmin etməyə hazırdır" deməsi (Zəngəzur dəhlizi) İrəvanın güzəştlər kodeksinin dairəsini genişlədir. Bu, Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatının paralelində diqqət çəkir. Ermənistan sərhəd və sərhədlə bağlı digər məsələlərdə Azərbaycanın tələblərinə boyun əyəcək. Qarabağdakı "Qisas" adlı antiterror əməliyyatı Azərbaycanın Ermənistanla sərhədə baxış bucağına yeni dərin məzmunlu meyar - Qərbi Zəngəzur amilini gətirir. İrəvan üçtərəfli bəyanatların icrasını bilərəkdən axsatmağa çalışsa, onda Azərbaycan həmin meyarların ölçüsünü hərb meydanında göstərməli olacaq".

**İsmayıl Qocayev**



**Ermənistan Laçına alternativ yolun tikinti işlərinə başlayıb. Bu barədə hökumətin iclasından əvvəl jurnalistlərlə açıqlamasında Ermənistanın Ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan bildirib. O deyib ki, texnikalar işləyir, yol çəkilir:**

"Biz onu üç yerə bölmüşük, fəal işləyirik. Yolun tikintisi yaza qədər başa çatacaq". Qeyd edək ki, Prezident İlham Əliyev, Rusiya rəhbəri Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın 2020-ci il noyabrın 10-da imzaladıqları bəyanata əsasən Laçın dekabrın 1-də Azərbaycana qaytarılıb. Lakin Laçın şəhəri və bir neçə yaşayış məntəqəsi dəhlizə düşdüyü üçün Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında qalıb. Azərbaycan tərəfi Laçının mərkəzindən yan keçən yeni yol çəkib. Yolun uzunluğu 32 kilometrdir. Ermənistan tərəfindən çəkiləcək yolun uzunluğu isə 4 kilometr təşkil edir. Yeni yol dəhliz kimi istifadə olunacaq. Bundan sonra Laçın şəhəri Azərbaycan Ordusunun nəzarətinə keçəcək.

# Yol hazırdır

## Laçını boşaldıb alternativ yoldan istifadə etməlidirlər

**Politoloq Elxan Şahinoğlu deyib ki, Azərbaycan tərəfi aylardır Laçına alternativ yolun tikintisini aparırdı.** Analitikin sözlərinə görə, bunu Qarabağ erməniləri, rusiyalı sülhməramlılar və İrəvan da görürdü: "Rəsmi Bakı onu da elan etmişdi ki, yay aylarında alternativ yolun tikintisi başa çatacaq. İrəvan bunu da görür və etiraz etmirdi. Buna baxmayaraq, Nikol Paşinyan dəhlizin Ermənistan hissəsinin tikintisinə başlamırdı. Görünür, o, radikal müxalifətdən və Qarabağdakı erməni separatçılarının harayhəşirindən qorxurdu. İndi isə vəziyyəti özü üçün daha da mürəkkəbləşdirib. Yol hazırdır, Laçını boşaldıb alternativ yoldan istifadə etməlidirlər. Ermənistana uzaqbaşı bir ay güzəşt edilə bilər, yenə məsələni uzatsalar, toqquşma qaçılmaz olacaq".

***"Ermənistana uzaqbaşı bir ay güzəşt edilə bilər"***

**İsmayıl**



hücum olub, Britaniya bayrağı endirilib. Bircə anlığa dünya mediasının nələrdən yazacağını düşünün? Hansı paralellər aparacağını da. Bəlkə hələ öz vətəndaşlarını Azərbaycana səfərdən imtina etmək yönümlü çağırışlar edən kütləvi informasiya vasitələri də tapılardı. Ancaq "BBC", "ITV", "Sky news" kimi nüfuzlu telekanallar, "The Times", "Daily Mail", "The Telegraph", "The Spectator", "Private Eye",

# Britaniya mediası səfirliyə hücumu susaraq qarşıladı

## "Görünür, ya Britaniya Avropa deyil, ya da biz Britaniyanın olduğu Avropanı tanımırıq"

**"Maraqlıdır ki, Britaniyanın aparıcı media orqanları Azərbaycanın Londondakı əsas diplomatik nümayəndəliyinə qarşı hücumun təqdimatına demək olar, yer vermədilər". Bu sözləri Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.**

MŞ rəhbəri bildirib ki, təxribat aktı Avropa üçün təhlükəli sayılan dini fanatizm, islam fundamentalizmi rənglərinə bürünmüşdü: "Başqa vaxt qitənin islamafobları ayağa qalxardılar. İndi onlar da susublar. Görünür, ya Britaniya Avropa deyil, ya da biz Britaniyanın olduğu Avropanı tanımırıq. Belə nəticəyə gəlirəm ki, islamafobiyanın özü də qəlibləşdirilmiş siyasi struktura malikdir. Yəni bu cərəyanın reaksiya verəcəyi durumlar da kifayət qədər konkretdir. Hər şey ölçülü-biçilidir, hesablanmışdır. Nə isə, sözüm bunda deyil. Təsəvvür edək ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyinə "The Guardian" kimi populyar nəşrlər Azərbaycan səfirliyinə qarşı hücumu, təxribatı susaraq qarşıladılar".

**Ə.Amaşov qeyd edib ki, yalnız az sayda populyar nəşrlərdə hadisə barədə ötəri təqdimata rast gəlinib:** "Eyni yolu "BBC"nin Azərbaycan və fars xidməti də tutdu. Yeri gəlmişkən, onu da deyim ki, BBC Azərbaycanda cinsi azlıqların nümayişini canlı yayımlayırdı. Azərbaycanın Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinə qarşı hücum və bayrağımıza qarşı aşkar hörmətsizlik faktına media yanaşması bir daha onu göstərdi ki, dünyada peşəkar jurnalistika standartları gerçək hədəf və mahiyyətindən uzaqdır. Bu standartlar özünü yalnız siyasiləşmiş və ya siyasiləşdirilmiş məsələlərə münasibətdə göstərir".

**İsmayıl**

# Laçında 150-yə yaxın erməni qalıb

## İndiki vəziyyətdə onlardan heç olmasa biri Azərbaycan vətəndaşlığı haqda düşünə bilər



**"Laçın şəhəri və Zabuxda qalan ermənilərə ərazini avqustun 25-nə qədər tərk etməsi tələbi qoyulub". Bu sözləri siyasi şərhçi Asif Nərimanlı deyib.**

Ekspert bildirib ki, buna etiraz edən ermənilər Laçın dəhlizinin kəndə keçən hissəsini bağlayıblar: "Onlar yaxşı bilir ki, çıxsalar, ya Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində, yaxud İrəvanın küçələrində evsiz qalacaqlar. Bu, Bakı üçün yeni imkan yaradır. Çünki ermənilərin Laçında qalmasının yeganə yolu Azərbaycan vətəndaşlığını qəbul etmələridir. Bakının onlara belə bir təklif verməsi ən azı Qarabağdakı "etnik ermənilərin" nəbzini yoxlamaq baxımından lazımdır. Laçında 150-yə yaxın erməni qalıb. İndiki vəziyyətdə onlardan heç olmasa biri Azərbaycan vətəndaşlığı haqda düşünə bilər. Buna nail olsaq, Xankəndinə bir addım da yaxınlaşa bilərik".

**İsmayıl**

# Təşkil olunmuş təxribatdır

## Volkov müzakirəni yayındırmaq üçün bayraq məsələsi ilə spekulyasiya edib




**Rusiya sülhməramlı kontingentinin komandanı, general-mayor Andrey Volkov Qarabağın erməni icmasının nümayəndələri ilə görüşüb. Görüş zamanı general son baş verənlərlə bağlı sülhməramlı kontingentin mövqeyinə aydınlıq gətirib, görülən işlər barədə məlumat verib.**

Görüşdə diqqət çəkən məqamlardan biri də müharibədən sonra ilk dəfə Azərbaycan bayrağının masada qoyulması olub. Xatırladaq ki, indiyə qədər sülhməramlılar separatçıların qondarma "bayrağı" ilə poz verirdilər.

**Politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu bu barədə "Şərq"ə danışarkən bildirib ki, Rusiya sülhməramlılarının komandanı bayraq məsələsi ilə bir növ spekulyasiya edir:** "Həmin masanın üzərində dörd bayraq var: Rusiya Silahlı Qüvvələri, Rusiya, Ermənistan və Azərbaycanın. Burda rus sülhməramlılarının nümayəndəsi həmin bayraqları qarşısına düzməklə məsələnin mahiyyətini kölgədə saxlamaq istəyir. Beləcə ordakı erməni icması deyilən əhalinin nümayəndələri ilə danışdığı məsələlər qıraqda qalır, bütün diqqət də bayraqlara yönəlir. İndi bizi düşündürən məqam orda Azərbaycan bayrağının deyil, Ermənistan bayrağının masaya qoyulması olmalıdır. Bu, bizim üçün ciddi məsələdir".

*Poliotoloq düşünür ki, bu senari üzərində öncədən yaxşıca işlənilib, mahiyyəti isə belədir:* "Ermənistan tərəfində masadakı Azərbaycan bayrağı erməni icmasının müqəddəratı necə olacaq? - sualı ətrafında, Azərbaycan tərəfində isə masadakı Ermənistan bayrağı bizim torpağımızda masaya niyə erməni bayrağı qoyulub - sualı ətrafında spekulyasiya başladılsın. Bu, məqsədli şəkildə təşkil olunmuş kiçik təxribatdır".

**Ə.Oruclunun qənaətincə, burda əsas məqsəd həmin görüşdə nələrin danışıldığını arxa planda saxlamaq olub və görünən odur ki, təşkilatçılar bunu bacarıblar:** "Çünki erməni, eyni zamanda, Azərbaycan mətbuatında sözügedən görüşlə bağlı məlumat yox dərəcəsindədir".

**Günəş Mərd**

# Bankçı, maliyyəçi, hərbçi, menecer...

## Rayon təhsil idarələrinə rəhbər vəzifələrə təyinatlar gülüş doğurur

**"Regional Təhsil İdarələri rəhbərliklərinə təyinatlar məsxərə predmetidir. Təhsil sistemində aparılan islahatlar prosesi kimi regional təhsil idarələri yaradılması uzun müqavimətdən sonra nəhayət ki, reallaşdırıldı. Artıq ikisi istisna olmaqla idarələrə təyinatlar həyata keçirilib". Bu sözləri təhsil eksperti Kamran Əsədov deyib.**

Ekspertin sözlərinə görə, Abşeron-Xızı Regional Təhsil İdarəsi və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdirləri istisna olmaqla digər təyinatlar uğursuzdur. Bu iki idarənin müdirləri təyinat aldıqları vəzifəyə sosial lift ilə yüksəlib. Yerdə qalan 8 idarəyə rəhbər təyinatı yalnız gülüş, təəccüb və ən yaxşı halda sual doğura bilər. Maraqlıdır, təhsilə bağlılığı olmayan bankçı, maliyyəçi, hərbçi, menecerlər yaşamadığı və işləmədiyi bölgəyə təyinat almağı necə bacarıb?

Əhalisi 500 min nəfərdən, məktəbləri 500-dən artıq azı 5 inzibati rayonu əhatə edən regionda təhsili idarə etməyə 5 nəfərin tapılmaması görüntü, əvəzində rəhbərliyin bölgəni tanımayan kənar regiondan olan insanlardan təyinat həyata keçirməsi sadəcə bölgə təhsil işçilərində rəhbərliyə etimadsızlıq yaradan haldır. İxtisaslı olmayan, bəzi hallarda isə təhsil sistemində çalışmayan təsadüfi insanların regional təhsil idarəetmə orqanlarında yüksək postlara təyinatı sanki məzhəkədir. Bütün bunlar ölkə ictimaiyyətində təhsil islahatlarına ümidləri qırmaqla yanaşı təhsili idarə edən orqanlara etimadı da azaldır. Bu təyinatları həyata keçirənlər və ya vəzifələrə təyin edilən bu insanlar müəllimlərə hansı örnəyi göstərmiş ola bilərlər?



***"Yəni kadrlar, sinif yoldaşı, tələbə yoldaşı, qohum və ya tanışlıqla deyil, peşəkarlıq və işgüzar keyfiyyətlərinə, peşə fəaliyyəti zamanı uğurlu nəticələrinə görə gətirilməlidir"***

**Təhsil eksperti Elşən Qafarovun "Şərq"ə açıqlamasına görə, təhsil sahəsinin idarə olunması təhsil ilə bağlı ixtisası və təcrübəsi olan şəxslərə həvalə olunmalıdır:** "Çox təəssüflər ki, son illərdə belə bir tendensiya yaranıb, adam xaricdə təhsil alıbsa, fərqi yoxdur hansı istiqamət üzrə, aparıcı vəzifələrə təyin olunurlar, nəticədə kadrlar özlərinin belə anlayışı olmadıqları sahəni idarə etməli olurlar. Bu tendensiya digər dövlət qurumlarında da var, təhsildə lap çoxdur. Təhsil sahəsinə birbaşa təhsil sahəsi üzrə təhsil və təcrübəsi olan şəxslər gətirilməlidir. Təhsil sahəsində kadr təyinatında şəbəkələşmə amili aradan qaldırılmalıdır. Yəni kadrlar, sinif yoldaşı, tələbə yoldaşı, qohum və ya tanışlıqla deyil, peşəkarlıq və işgüzar keyfiyyətlərinə, peşə fəaliyyəti zamanı uğurlu nəticələrinə görə gətirilməlidir.

Struktur islahatları idarəetmənin təkmilləşdirilməsi üçündür. Keyfiyyətin artırılması üçün isə dediyim kimi, təhsili bilən, bu sahədə təhsili və təcrübəli olan kadrlar irəli çəkilməlidir. Təkliflərimlə bağlı dəfələrlə çıxışlar etmişik, amma təəssüf ki, indi təklifləri heç kim dinləmək istəmir. Bütün diqqət ona yönəlib ki, müxtəlif layihələr keçirmək adı ilə külli miqdarda vəsaitlər boş yerə sovrulur. Bu sahəyə dövlət nəzarəti ya zəifdir, ya da dövlətin xoş məramından ciddi sürətdə sui-istifadə edilir. Ölkədə təhsilin bütün pillələri üzrə struktur və məzmun islahatları, sözün əsl mənasında islahat aparılmalıdır. Hüquqi-normativ baza yaradılmalı, bütün fəaliyyətlər qanunlar və qaydalar çərçivəsində həyata keçirilməlidir. Bunu isə istəyən olmalıdır. Kosmetik dəyişikliklər heç vaxt islahat effekti verə bilməz. Mütəxəssislərə qapılar açıq olmalıdır".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**



# Gənclərin Şuşada toplanmasının əhəmiyyəti çox böyükdür

## "Yay Düşərgəsi ölkəmizi uğurla təmsil etmək bacarıqları, şəbəkələşmək imkanı qazandırır"

**Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Azərbaycan mədəniyyətinin incisi olan Şuşada "Diaspor Gənclərinin III Yay Düşərgəsi" davam edir. Qeyd edək ki, "Şuşa İli" çərçivəsində təşkil edilən Düşərgə işini avqustun 8-də başa çatdıracaq. Dövlət Komitəsinin məlumatında bildirilir ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 5 yanvar 2022-ci il tarixli Sərəncamı çərçivəsində həyata keçirilən layihə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gəncləri vahid platforma ətrafında bir araya gətirmək və Azərbaycanla daha yaxından tanış etmək məqsədinə xidmət edir.**

"Diaspor Gənclərinin III Yay Düşərgəsi"ndə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı və Azərbaycana dost münasibət bəsləyən digər xalqların 18-29 yaş arasında olan gənclər iştirak edir. Düşərgənin proqramı da çox zəngindir. Proqrama Şuşanın işğal dövründə dağıdılmış abidələri ilə tanışlıq, müqəddəs məkanları ziyarət, şəhid ailələrinin üzvləri və qəhrəman qazilərlə, Azərbaycanın mədəniyyət və incəsənət, həmçinin elm xadimləri ilə, müxtəlif sahələr üzrə ekspertlərlə görüşlər, eləcə də gənclər üçün əyləncəli proqramlar, intellektual oyunlar daxildir. İlk gündən Düşərgə həyatı maraqlı olub. Azərbaycan Diaspor Gənclərinin Şuşada keçirilən III Yay Düşərgəsinin ilk günü səhər idmanı ilə başlayıb. Yoqa üzrə ixtisaslaşmış təlimçi Ruqiyyə Əşrəflinin apardığı dərs gənclərimizə Şuşadakı ilk səhəri gözəl əhval-ruhiyyə ilə açmağa kömək edib. Sonra Avropa Şurasının Gənclər departamentinin Təlimçilər Şəbəkəsinin baş təlimçisi Pərvanə Məmmədova düşərgə iştirakçılarını günün proqramı barədə məlumatlandırıb. Proqrama əsasən, düşərgə iştirakçılarına Azərbaycan dili təlimi təşkil edilib. Təlimi Azərbaycan Dillər Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi Səbinə Əliyeva tədris edib. Təqdirəlayiqdir ki, düşərgə iştirakçıları, xüsusilə də xaricdə doğulub böyüyən gənclər arasında doğma dilimizi mükəmməl bilənlər olsa da, 115 nəfərin hər biri Azərbaycan dili təliminə qatılıb. İlk dərsdə gənclərimiz Azərbaycan dilində yaşadıqları ölkə, təhsilləri, iş təcrübələri, nailiyyətləri və diaspor fəaliyyətləri barədə məlumat veriblər. Gənclərimizin doğma dilimizdə çıxışları maraqla qarşılanıb. Proqram "Azərbaycan diasporu və dövlət gənclər siyasəti" və "Dövlət Qurumları ilə ictimai əlaqələrin qurulması" mövzularında panellərlə davam edib. Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktorunun müavini Şahin Camalov və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Daşqın Rəcəblinin moderatorluqları ilə aparılan panel iclaslarında Azərbaycan dövlətinin diaspor və gənclərlə iş sahəsində gördüyü işlər barədə ətraflı məlumat verilib, diaspor gənclərinin xaricdə ölkəmizin qeyri-rəsmi səfirləri olduqları, beynəlxalq tədbirlərdə tarixi vətənlərini ləyaqətlə təmsil etdikləri vurğulanıb. 44 günlük Vətən müharibəsi dönəmində xalqımızın haqq səsini yaşadıqları ölkələrin ictimaiyyətinə fədakarlıqla çatdıran gənclərimizə minnətdarlıq ifadə edilib. Müstəqil Azərbaycan dövlətinə qarşı yönələn təhdidlərin və məqsədyönlü təxribatların önünün alınmasında gənclərin roluna diqqət cəlb edilib və bu istiqamətdə fəallıq göstərilməsi yollarından danışılıb. Panellər gənclərlə interaktiv sual-cavab formatında aparılıb. Düşərgə gənclərinin ilk günü Şuşa turu və əyləncəli proqramla başa çatıb. İsa bulağından yaşadıqları ölkələrə su payı götürən gənclərimiz Şuşanın bütün tarixi məkanlarında "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər. Yay Düşərgəsinin növbəti günləri də yaddaqalan hadisələrlə zəngin olub. Proqram çərçivəsində "Azərbaycanın müstəqillik tarixi" mövzusunda panel iclası təşkil edilib. Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Yəhya Babanlının moderatorluğu ilə aparılan panel iclasda Azərbaycan Milli Elmlər Akademiyası Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru, professor Solmaz Tohidi və Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Musa Qasımlı çıxış ediblər. Məruzəçilər Azərbaycan dövlətinin müstəqillik tarixindən, Xalq Cümhuriyyəti dövründən, xalqımızın milli azadlıq mücadiləsinin dövlət müstəqilliyinin bərpa olunması ilə nəticələnməsindən və ölkəmizi parlaq Zəfərə aparan yoldan danışıblar. Diaspor Gənclərinin III Yay Düşərgəsi çərçivəsində tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüş keçirilib. Maraqlıdır ki, bu tədbir dahi Bülbülün ev-muzeyinin həyətində təşkil olunub. Bu da düşərgə üzvlərinə xoş təsir bağışlayıb. Tədbirdə "Azərbaycanfilm" kinostudiyasının baş redaktoru, kinoşünas, kinorejissor, Əməkdar incəsənət xadimi Ayaz Salayev, kinoaktyor, Xalq artisti Şamil Süleymanov və Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Zöhrab Dadaşov iştirak ediblər. Xalqımızın zəngin mədəni irsi barədə ətraflı məlumat verən tanınmış ziyalılarımızın maraqlı söhbətləri düşərgə gənclərinə unudulmaz anlar bəxş edib. Gözəl əhval-ruhiyyənin hökm sürdüyü görüş sualların cavablandırılması ilə başa çatıb.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclərin, həmçinin müxtəlif xalqları təmsil edən gənclərin Şuşada Yay Düşərgəsinə toplaşmasının əhəmiyyəti çox böyükdür. Gənclər ilk növbədə Tarixi Zəfərimizin Şuşa təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirəcək, ölkəmizi uğurla təmsil etmək bacarıqları, şəbəkələşmək, yeni dostlar qazanmaq imkanları əldə edəcəklər. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov danışıb. Komitə sədri bildirib ki, Diaspor Gənclərinin Yay Düşərgəsinin Qarabağın incisi olan mədəniyyət paytaxtımızda keçirilməsi tarixi önəm daşıyır. Bu ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının V Qurultayının məhz işğaldan azad edilmiş Şuşa şəhərində təşkil olunduğunu xatırladan Komitə sədri mərasimi Azərbaycan diaspor tarixinin əlamətdar hadisələrindən biri adlandırıb və bu münasibətlə düşərgə iştirakçılarını təbrik edib. O, Vətən müharibəsindəki tarixi Zəfərin Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan Ordusunun rəşadəti sayəsində mümkün olduğunu vurğulayıb: "Azərbaycan tolerant ölkədir. Biz heç vaxt heç kimin torpağını işğal etməmişik. Siz bununla fəxr etməli və Azərbaycanın düşmənlərinə qarşı ideoloji mübarizə aparmalısınız. Biz istəyirik ki, buradan qayıdandan sonra siz yaşadığınız ölkələrin parlamentlərinə, hökumətlərinə, eləcə də beynəlxalq təşkilatlara öz mövqeyinizi bildirəsiniz". Qeyd edilib ki, Diaspor Gənclərinin Yay düşərgəsi ənənə halını almalıdır. Diaspor hərəkatı tarixində ilk dəfə olaraq Qarabağ torpağında belə bir tədbir keçirilir. Xaricdə yaşayan gənclərimizin və Azərbaycana dost ölkələrin nümayəndələrinin qədim şəhərdə bir araya gəlməsi müsbət hadisə kimi qiymətləndirilir. Düşərgə işini başa vurduqdan sonra öz ölkələrinə qayıdan gənclər Şuşada gördüklərini, Azərbaycan həqiqətlərinin ölkələrinin ictimaiyyətinə, gənclərə çatdırılmasında böyük rol oynaya bilər. Düşərgə diaspor təşkilatlarının fəaliyyətinin güclənməsinə xidmət etməli, burada yaşanan birlik, həmrəylik növbəti düşərgə ilinədək davam etməlidir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Dəmir iradə və qətiyyət Zəfər qazandırdı

## Qərbi Azərbaycan uğrunda mübarizədə də eyni milli birliyi nümayiş etdirməliyik



**Ötən gün "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin ümumi yığıncağı keçirilib. Yığıncaqda səsvermə ilə ictimai Birlik "Qərbi Azərbaycan İcması" adı ilə qeyri-kommersiya təşkilatına çevrilib.**

İcmanın məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqdır. Həmçinin, onların hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınmasıdır. Eyni zamanda həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunması da İcmanın məqsədləri arasındadır. Yığıncaqda İcmanın İdarə Heyəti, Müşahidə Şurası və Nəzarət-Təftiş Komissiyasının üzvləri və rəhbərləri də seçilib.

**Millət vəkili, "Qərbi Azərbaycan İcması"nın sədri Əziz Ələkbərli** bildirib ki, 44 günlük Vətən müharibəsində qazandığımız zəfər hər kəsin hesablaşmaq məcburiyyətində olduğu bir reallıq ortaya qoydu. Deputatın sözlərinə görə, bu reallıq 34 ildən bəri fəaliyyət göstərən Azərbaycan Qaçqınlar Cəmiyyəti üçün də öz fəaliyyət istiqamətlərinə yenidən baxmaq zərurəti doğurdu: "Azərbaycan Qaçqınlar Cəmiyyəti bu günə qədər, əsasən, 1988-1991-ci illərdə Qərbi Azərbaycandakı ata-baba yurdundan qovulmuş qaçqınların problemləri ilə məşğul olurdu. Bu gün qarşımızda daha böyük hədəflər, bu ərazilərdə Azərbaycan tarixi-mədəni irsinin və izinin məhv edilməsi siyasətinin ifşası, Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması vəzifəsi durur. Cəmiyyətin bu günə qədərki adı bu məzmunu ehtiva etmədiyi üçün onun adını Qərbi Azərbaycan İcması adı ilə əvəz etməyi məqsədəuyğun hesab etdik. Qərbi Azərbaycan məsələsi ümummilli məsələdir, bu coğrafiya son qarışına qədər Azərbaycanın tarixi torpaqlarıdır. Bu ərazidə tək İrəvan xanlığının yox, Qərbi Zəngəzurun timsalında Qarabağ xanlığının, Dərələyəz mahalının timsalında Naxçıvan xanlığının, Dilican dərəsi və Şəmşəddil sultanlığının timsalında Gəncə xanlığının, Borçalının dağlıq hissəsi yerləşir. 44 günlük Vətən müharibəsində biz bir millət olaraq dəmir yumruq kimi birləşdik və Müzəffər Ali Baş Komandanın nümayiş etdirdiyi dəmir iradəsi və qətiyyəti ilə Zəfər qazandıq. Qərbi Azərbaycan uğrunda mübarizədə də eyni milli birliyi nümayiş etdirməliyik. Həqiqətləri beynəlxalq müstəviyə çıxarmalıyıq. Erməni yalanlarını, erməni saxtakarlıqlarını sona qədər ifşa etməliyik. Qərbi Azərbaycan ərazisində xalqımızın çox zəngin mədəni-tarixi irsi var. Qarşımızda duran ən mühüm məsələlərdən biri həmin irsimizə aid materialları toplayıb ortaya qoymaqdır. Bu materialların beynəlxalq ictimaiyyətin və təşkilatların diqqətinə çatdırılması məsələsində də heç bir problemimiz yoxdur. Xarici ölkələrdə bizim xeyli sayda dəyərli soydaşlarımız var və biz onları bu işə səfərbər edəcəyik". Parlament üzvü bildirib ki, biz öz tarixi yurdlarımıza, dədə-baba ocaqlarımıza mütləq qayıdacağıq: "Bu bizim tarixi-mənəvi və insani haqqımızdır. Burada qeyri-qanuni heç nə yoxdur. İnsanlar öz doğma evlərinə qayıtmaq, öz evlərində yaşamaq istəyirlər. Bunu heç kəsə qadağan etmək olmaz. O ki qaldı İcmanın bu yolda hansı işləri görəcəyinə, təbii ki, İcma bu yolda mümkün olan hər şeyi edəcək".

**İsmayıl**





# İlk görüşdən könüllərə hopan adam - Araz Zeynalov

## "Ötürdüyü işıqdan ümidlərim cücərmişdi"

**Xəbəri eşidəndən bəri naməlum, məchul bir qüvvə məni cəmi bircə dəfə görüşdüyüm adamın itkisindən yazmağa təhrik edir. Dünən dünyasını dəyişən Araz müəllimi deyirəm, - jurnalist Araz Zeynalovu.**

Onu mənimlə Səbuhi Sədəf tanış edib, zəng vurdu ki, gəl "Göy-göl"ə Araz müəllimlə tanış edim səni. Yadıma düşdü ki, cümə günüdür, xeyli müddətdir ki, bu iki yoldaş həftənin son iş gününü belə yola salıb, istirahət günlərini belə qarşılayırlar. Yorğunuydum, elə də həvəsli getmədim. "Space" TV-nin arxasında, ağaclıqlar içindəki "Göy-Göl" kafesində çox olmuşdum.

Bu məkanla da Səbuhi tanış edib məni. Gəncəli iki qardaşın binanın alt mərtəbəsində əl-ələ verib çalışdıqları bu yeməkxana daimi müştərilərinin məbədinə çevrilib, eyni adamları burda görməyə alışmışdım. Foye-zalda masalardan birinin arxasında çal saçları iki hissəyə daranıb ayrılmış, səliqəli görkəmdə ortayaşlı bir kişi təkcə yeyib-içirdi. Fikirləşdim, yeni müştəridir, çünki ilk dəfə görürdüm burda. Onun tənhalığı canımı bir az da sıxdı. Həmin axşam "Göy-Göl" daha həzin, daha hüznlüydü. Səyavuşun şövqlü səsi diqqətimi yayındırdı bu kədərli mənzərədən.

- Xoş gəlmisən, qadan alım. Səbuhigil üçüncü kabinetdədirlər. Keç otur, sənə yarım doyğa verim, kefin desin.

Anladım ki, yorğun görünüşümə "redaktələr" eləməliyəm, ancaq Səyavuşun öz gəncəli ləhcəsiylə dovğaya "doyğa" deməsi qırımımı açmışdı artıq.

Səyavuşun göstərdiyi üçüncü kabinetə keçib ilk Səbuhi ilə görüşüb qucaqlaşdıq, sonra Araz müəllim də ayağa qalxıb doğması kimi bağrına basdı məni - ilk dəfə gördüyü adamı. Üçüncü adam da varıydı masada. Araz müəllimin qohumu, həm də tanınmış geoloquydu. Təbii, onunla sadəcə əl tutduq. O axşam geologiya və mineralogiyayadan tutmuş jurnalistikaya qədər çox şeydən danışdıq, ancaq heç biri təfərrüatıyla yadımda qalmayıb, təəssüf. Yadımda qalanlar Səyavuşun "doyğa"sından sonra pomidor qızartmasıyla kotlet, bir də Araz müəllimin tez-tez ironik tərzdə kiməsə "idiot" deməsiydi. Ayrılanda Araz müəllimin portretini ürəyimdə "çəkmişdim" artıq. Ötürdüyü istilikdən, işıqdan arzularım yaşıllaşmışdı, ümidlərim cücərmişdi. Maşını sürmürdüm, özü Allah umuduna gedirdi.

Səbuhi Araz müəllimin xəstələnib evə dustaq düşdüyünü ilk deyəndə də ümidli və nikbiniydim. Xəstəliyi yenəcəyinə inanırdım.

Söz vaxtına çəkər deyirlər, keçən ilin bu günlərində günorta Səbuhiylə görüşüb harasa gedirdik. Səbuhi votsapda "Göy-Göl" Səyavuşa səs göndərdi ki, menyunun şəklini Araz müəllimə də atsın. Bunu eşidib sevindim: "Səbuhi çox şükür, deyəsən Araz müəllim sağalıb yeyib içməyə köklənib" - soruşdum.

- Yox, - qısa fasilə verib davam etdi: "Durumu qənaətbəxş deyil. İcazə vermirlər evdən çölə çıxmağa. Sadəcə bilir ki, axşam "Göy-Göl"də olacam, menyunu incələyir və bir azdan təxminən belə bir mesaj göndərəcək: "Səbuhi, baxdım menyuya. Sənin yerində olsam, zirinclə qovrulmuş dana əti sifariş verərdim axşama".

Cavabdan məyus oldum və başqa heç nə soruşmadım.

Yadıma düşdü ki, bu gün cümə günüdür,- həftənin son iş günü...

**Babək Məmmədli, mühəndis**

# Xəstəliyə tutulsanız bir ay qorunun!

## Meymunçiçəyinin Azərbaycana keçməsinin qarşısını almaq mümkün deyil



**ABŞ hökuməti meymunçiçəyi epidemiyası hallarının artmasından sonra ictimai səhiyyə üçün fövqəladə vəziyyət elan edib. Qərar virusun yayılmasının qarşısını almaq üçün peyvəndlərin, müalicə vasitələrinin və federal resursların paylanmasını sürətləndirəcək.**

Qeyd edək ki, meymunçiçəyi artıq ölkə sərhədlərinə yaxınlaşıb. İnfeksiya qardaş Türkiyədə, qonşu Rusiya və Gürcüstanda artan xətlə gedir. Mövsümlə əlaqədar sözügedən ölkələrdən Azərbaycana gediş-gəlişin artmasını nəzərə alsaq, meymunçiçəyinin ölkəmizdə aşkarlanma ehtimalı istisna deyil.

**Həkim-infeksionist Türkan Süleymanlı "Şərq"ə meymunçiçəyinin adətən heyvanlarda müşahidə olunan bir virusun yaratdığı xəstəlik olduğunu deyib.** Meymunçiçəyi virusu yoluxmuş heyvanlardan insanlara dolayı və ya birbaşa təmas yolu ilə ötürülür. İnsandan insana ötürülmə virusa bulaşmış dəri və ya zədələrlə, o cümlədən üz-üzə və tənəffüs damcıları ilə birbaşa təmasda baş verə bilər.

İnfeksionistin sözlərinə görə, meymunçiçəyi virusunun ilkin simptomlarına yüksək hərarət, şiddətli baş ağrısı, spesifik səpgilər, limfa düyünlərində şişkinlik, əzələ ağrıları, halsızlıq daxildir: "Xəstəliyə tutulduğundan şübhələnənlərə dərhal həkimə müraciət etmələri və virus testindən keçmələri tövsiyə olunur. Profilaktik tədbir olaraq əlləri daha tez-tez yumaq, məsafə saxlamaq və yuxarıda qeyd olunan simptomları olan insanlarla təmasdan çəkinmək məsləhətdir. Xəstəliyin gizli dövrü Dünya Səhiyyə Təşkilatının bildirdiyinə görə, 5 ilə 21 gün arasında dəyişməkdədir. Yüksək hərarətin başlanmasından 1-3 gün sonra xəstədə spesifik səpgilər əmələ gəlir, adətən üzdən başlayır və bədənin digər hissələrinə yayılır. Bəzi xəstələrdə səpgilər cinsiyyət orqanlarında, gözlərdə və ağızın selikli qişasında da görünə bilər. Səpgilərin oxşarlığına görə meymunçiçəyini bəzən suçiçəyi ilə qarışdırırlar. Amma meymunçiçəyindən fərqli olaraq, limfa düyünlərinin böyüməsi müşahidə edilir. Xəstəliyin ağırlığından asılı olaraq səpgilər 2-4 həftə ərzində tamamilə yox olur".

**Həkimin fikrincə, ÜST meymunçiçəyini pandemiya elan etmiş olsa belə, COVID-19 kimi geniş yayılmayacaq:** "Ancaq immunsupressiv xəstələr, immuniteti aşağı olan, hematoloji, onkoloji, qaraciyər, böyrək və s. kimi problemləri olan, transplantasiya edilmiş xəstələr və xüsusilə uşaqları bu xəstəlikdən qorumaq lazımdır. Yoluxmanın risk qrupuna immun çatışmazlığı olan insanlar və yoluxmuş insanlara qulluq edən şəxslər daxildir. Ağırlaşmalar ikinci infeksiyalar, bronxopnevmoniya, sepsis, ensefalit, görmənin pozulması ola bilər".

Meymunçiçəyinin Azərbaycana keçmək ehtimalına gəldikdə isə infeksionist deyib ki, Azərbaycana yaxın və sıx gediş-gəlişi olan ölkələrdə bu xəstəlik aşkarlandığından infeksiyanın ölkəyə keçməsinin qarşısını almaq mümkün deyil.

Şeymən

## Trombun qarşısını alır

### Səhərdən axşam 6-ya kimi fasilələrlə adi suyu içmək lazımdır



**Dietoloq insanı tromblaşmadan xilas edəcək maye miqdarı barədə məlumat verib.**

Bakupost.az xəbər verir ki, həkim Marqarita Koroleva qanı durulaşdırmaq üçün lazımi şərt və içkiləri açıqlayıb.

"Trombozun profilaktikası üçün qanın qatılaşmasına imkan vermək olmaz. Xüsusən isti havada qan qatılaşır, çünki orqanizm susuzlaşır.

İnsan hər kiloqram çəkisinə 33 ml olmaqla maye qəbul etməlidir. Sutka ərzində xüsusən səhərdən axşam 6-ya kimi qazsız, soyuq olmayan adi suyu fasilələrlə içmək lazımdır.

Su maye məhlullar içində ən yaxşı aktivliyə malikdir, yüngüldür, zərərsizdir.

O limfodrenaj və detksikasiya effekti verir.

Eləcə də qanı limon suyu qatılmış su və nar şirəsi yaxşı durulaşdırır. Onlarda C və P vitamini vardır ki, qan dövranı sistemini tənzimləyir.

Xüsusən 50 yaşdan yuxarı insanlar üçün bu vacibdir. Həmçinin qanı təmizləmək, lipid səviyyəsini düzəltmək üçün çuğundur və şirəsi lazımdır".

## Flora Kərimova Röya ilə fotosunu paylaşdı



**Xalq artisti Flora Kərimova uzun müddət qalmaqal yaşadığı həmkarı Röya Ayxanla bağlı paylaşım edib.**

Sənətçi Röyanın fan səhifələrindən birinin paylaşdığı fotonu instaqramda hekayə bölməsində izləyiciləri ilə bölüşüb.

Belə ki, həmin kadrda Əməkdar artist Manana Caparidze, Röya və F. Kərimova yer alıb. O, paylaşıma ürək stikeri əlavə edib.

*Qeyd edək ki, R. Ayxan ötən il Flora Kərimova ilə barışdığını açıqlamışdı.*

# Kirayə mənzil bazarında ajiotaj yaşanmır

## Bakı ətrafı bağ evlərinə də əvvəlki illərdəkindən fərqli olaraq, tələbat azdır

**Hazırda kirayə bazarında mənzillərə tələbat yüksək deyil. Paytaxtda həm kirayə, həm də mənzil satışı bazarında durğunluq yaşanır.**

Əmlak eksperti Elnur Azadovun "trend.az" a açıqlamasına görə, bu mövsümdə həmişə belə olur. Durğunluğun səbəbi tələbələrin dərslərinin bitməsiylə əlaqədar öz rayonlarına qayıtmasıdır: "Yəni bir çox hallarda mövsümi xarakter daşıyır: "Hazırda kirayə mənzil fondunun 20 faizi boşalıb. Lakin qiymətlərdə heç bir dəyişiklik yoxdur. Təxminən avqust ayının axırında paytaxta tələbə axını ilə bağlı kirayə mənzil bazarında qiymət artımı gözlənilir".

**Əmlak eksperti Elnur Fərzəliyev isə hesab edir ki, kirayə evlərinin bir hissəsi boş olsa da, universitetə yeni qəbul olan, bölgələrdə yaşayan tələbələrin valideynləri də indi bu mənzillərlə maraqlanmağa başlayıblar.** Hər il ənənəvi olaraq bu məsələ problemə çevrilir - tələbələrin ev tapması getdikcə daha da çətinləşir. Köhnə binalar sökülür, hər dəfə bu proses baş verəndə həmin binalardakı mənzillər kirayə bazarından çıxmış olur.



Başqa bir tərəfdən orada yaşayan sakinlər özləri kirayəyə çıxırlar - ən azı 2-3 il müddətinə. Onun yerində tikilən binalar isə təzə olduqlarına görə qiymətləri də köhnə binalara nisbətən təxminən iki dəfəyə qədər baha olur.

**Ekspert indiki dövr üçün kirayə mənzil bazarı ilə əlaqəli ciddi ajiotajın olmadığını vurğulayıb:** "Bakı ətrafı bağ evlərinə də əvvəlki illərdəkindən fərqli olaraq, tələbat azdır. Çünki orada qiymətlər həmişə yüksək olub, amma artıq bağ evi kirayələmək istəyən şəxslər istirahət üçün paytaxta deyil, bölgələrə üz tuturlar. Bu da təbii ki, bölgələrin iqtisadi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır. Başqa bir tərəfdən əvvəlki illərdə yay aylarında daha çox Azərbaycana həm turistlər, həm də xaricdə və Rusiyada yaşayan azərbaycanlılar gəlirdi. Evi olmayanlar mənzil kirayələyirdilər və ya bağ evlərindən istifadə edirdilər. Quru sərhədlərin bağlı olması artıq həmin insanların ölkəyə gəlməsində problemlər yaradır. Bu baxımdan o ailələr düşünürlər ki, təyyarə biletinə o qədər pul verib burada 5-10 gün qalmaqdansa, həmin qiymətə Gürcüstan və ya Türkiyədə dincəlmək olar. Buna görə də kirayə mənzil bazarına tələbat elə də ciddi deyil. Daxili turizm bazarı çökdükcə, bu sahədə də fəsadlar müşahidə olunur".

Şeymən

**Elan**

Dövlət Arxivinin Şirvan filialının direktoru vəzifəsini müvəqqəti icra edən Nəsibə Məmmədova və filialın kollektivi Azərbaycan Respublikası Milli Arxiv idarəsinin sabiq rəisi, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor Ataxan Paşayevin və xanımı Aida xanımın vəfatından kədərləndiklərini bildirir, ailə üzvlərinə və doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Mən Kərimova Lamiyə İlyas qızı "Speqtron" Məhdud Məsuliyyətli Cəmiyyətinin (1404923301) nizamnamə kapitalında olan 10 (on) manat payımı götürüb təsisçilikdən çıxmışam. Bununla əlaqədar bildirirəm ki, hüquqi şəxsə və onun təsisçisinə qarşı heç bir iddiam yoxdur və gələcəkdə də olmayacaqdır.

Fövqəladə Hallar Nazirliyinin Qazax rayon Yanğından Mühafizə Hissəsinin 94 nömrəli bölməsinin manqa komandiri Carçiyev Sərxan Səfalət oğluna məxsus iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## Yasamalda 2 ayda narkotik satan 50 nəfər tutulub

### Saxlanılanlardan 40 nəfəri barəsində həbs qətimkan tədbirləri seçilib

**Yasamal Rayon Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsi, eləcə də ərazi polis şöbə və bölmələrinin əməkdaşları tərəfindən iyun-iyul ayları ərzində keçirilən əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan ümumilikdə 50 nəfər tutulub.**

Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyindən (DİN) məlumat verilib.

Bildirilib ki, aşkar edilən bütün faktlarla əlaqədar İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb. Saxlanılan şəxslərdən 40 nəfəri barəsində məhkəmə tərəfindən həbs, 10-u haqqında isə digər növdən olan qətimkan tədbirləri seçilib.

*Qeyd edilib ki, İdarə əməkdaşları tərəfindən Yasamal rayonunda son dövrlər ərzində keçirilən əməliyyatlar zamanı ümumilikdə 37 kiloqram heroin, marixuana, tiryək və psixotrop maddə olan metamfetamin aşkar olunub.*

*Yasamal rayonu ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin saxlanılması istiqamətində polis əməkdaşları tərəfindən əməliyyat tədbirləri davam etdirilir.*

## Tovuzda əsgər ölümü ilə bağlı saxlanılan var

### İş üzrə istintaq tədbirləri davam edir

**Baş Prokurorluq Tovuzda Azərbaycan Ordusunun əsgərinin qeyri-döyüş şəraitində aldığı güllə yarasından ölməsi barədə məlumat yayıb.**

Baş Prokurorluqdan verilən məlumata görə, avqustun 5-də Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağamirov Pünhan Səyavuş oğlunun Tovuz rayonu ərazisində yerləşən hərbi hissədə qeyri-döyüş şəraitində aldığı güllə yarasından vəfat etməsi faktı ilə bağlı Şəmkir hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

İstintaqla cinayətin zərərçəkmişlə eyni hərbi hissədə xidmət edən əsgər Kazımov Amil Famil oğlu tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Amil Kazımov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. İş üzrə istintaq tədbirləri davam edir.

# İncəsənət xadimləri Şuşada

## "Bülbülün həyətində gəzmək xoşbəxtlikdir"

**Şuşada Bülbülün ev muzeyinin həyətində Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları ilə görüşən mədəniyyət və incəsənət xadimləri təəssüratlarını bölüşüblər. Bu barədə "Şərq"ə Diasporla İş üzrə Dövlət Komitəsi məlumat verilib. "Azərbaycanfilm" kinostudiyasının baş redaktoru, Əməkdar incəsənət xadimi Ayaz Salayev düşərgənin çox faydalı tədbir olduğunu bildirib:**





"Bu tədbir çox gözəl təşkil olunub, hər şey nəzərə alınıb. Təəccüblü və inanılmaz bir hissdir - bütün dünyadan azərbaycanlı gənclər Şuşaya qonaq gəlib. Mən burada Meksikadan, Almaniyadan, hətta Pakistandan olan gənclərlə tanış oldum. Bu tədbir sayəsində bu gənclər tarixi vətənlərinə daha sıx bağlanırlar. Onlar başqa ölkələrin vətəndaşları olsalar da, özlərini azərbaycanlı hesab edirlər. Bu fakt Azərbaycan diasporunun formalaşmasında mühüm rol oynayacaq. Bu düşərgənin Şuşada keçirilməsi rəmzi xarakter daşıyır və təqdirəlayiq haldır".

Azərbaycanın Xalq artisti, kinoaktyor Şamil Süleymanlının fikrincə, istənilən tədbirin Şuşada keçirilməsi onun əhəmiyyətini daha da artırır:

"Bu baxımdan Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondu tərəfindən xaricdə yaşayan azərbaycanlı gənclər üçün düşərgənin Şuşada təşkil olunması təqdirəlayiq haldır. Xaricdə yaşayan azərbaycanlı gənclərin Şuşaya bir araya gəlməsi, burada onlara müxtəlif dərslərin keçirilməsi, tanınmış alimlərlə, mədəniyyət xadimləri ilə görüşlərin təşkil olunması, Azərbaycan mədəniyyətinin təbliğ olunması böyük işdir. Bu gənclər natiqlərə çox diqqətlə qulaq asırlar. Gözlərindəki sevinci - Şuşada olmaq sevincini görmək olur. Çünki Şuşanın küçələrində gəzmək, daşına-torpağına toxuna bilmək, böyük Bülbülün həyətində gəzmək, oradakı quyudan su içmək, Şuşada dərindən və doyunca nəfəs almaq... Bu, şans deyil, böyük xoşbəxtlikdir".

Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Zöhrab Dadaşov da hesab edir ki, Diaspor Gənclərinin III Yay Düşərgəsinin mənəvi dəyəri çox böyükdür:

"Bu düşərgə sayəsində xaricdə doğulub böyüyən və yaşayan gənclərdə Azərbaycan haqqında dolğun fikir formalaşır. Bu, mənim Şuşaya ilk gəlişimdir. Çox gözəl hisslər keçirirəm, təəssüratlarımı sözlə ifadə edə bilmirəm. Dünyanın müxtəlif ölkələrində yaşayan gənclərin də mənim kimi çox gözəl hisslər keçirdiyini düşünürəm. Mən də tədbir çərçivəsində gənclərlə görüşdüm və görüşümüz çox maraqlı keçdi. Onlar arasında rəssamlığa, incəsənətə meylli olanlar az deyildi. Azərbaycanın müasir incəsənəti, incəsənət tarixi barədə sual-cavab oldu, gənclərlə çox gözəl diskussiya alındı. Gənclərin həm davranışları, həm də verdiyi suallardan bəlli olur ki, onların düşərgəyə seçilməsi prosesi çox yaxşı təşkil olunub. Bir məqamı xüsusilə vurğulamaq istəyirəm ki, gənclərin əksəriyyəti ana dilimizdə çox səlis danışırdı. Bu sevindirici hal idi".

*Qeyd edək ki, Diaspor Gənclərinin III Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə 2022-ci ilin 2-8 avqust tarixlərində gerçəkləşdirilir.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2181



## İstilərdən qoruyacaq

Pişiklər və itlər üçün sərin geyimlər hazırlandı



**Dünyanı ağuşuna alan dəhşətli istilər təkcə insanların həyatına mənfi təsir göstərmir. Yaponiyanın paytaxtı Tokioda geyim istehsalçısı olan şirkət qızmar istidən əziyyət çəkən ev heyvanları üçün geyinilə bilən ventilyator istehsal edib.**

Ümumiyyətlə, hamilə qadınlar üçün istehsal etdiyi paltarlarla tanınan Yaponiyanın "Sweet Mommy" şirkəti ev heyvanlarını sərin saxlayacaq ventilyatorun dizaynı üçün baytarlarla əməkdaşlıq edib.

*Qeyd edilib ki, sözügedən qurğu heyvanın bədəninə hava üfürən 80 qramlıq akkumulyatorla işləyən ventilyatordan ibarətdir. "Sweet Mommy"nin prezidenti Rei Uzava, yayda itini gəzintiyə çıxaran zaman yorulduğunu gördükdən sonra ev heyvanlarını sərinləşdirən cihaz hazırlamaq qərarına gəldiyini söyləyib. "Bu il demək olar ki, yağış olmadı. Bu səbəbdən isti günlər tez gəldi və düşünürəm ki, biz bu mənada bazara uyğun məhsul hazırlamışıq". Uzava, cihazın iyulun əvvəlində istifadəyə verildiyini və "Sweet Mommy"nin məhsul üçün 100-ə yaxın sifariş aldığını bildirib. Uzava əlavə edib ki, beş fərqli ölçü variantı olan məhsulun qiyməti orta hesabla 9 min yen (təxminən 1200 lirə) təşkil edir.*

## "Survivor"ın məşhurları evlənir

Onlar toy tarixini isə hələlik gizli saxlayır



**"Survivor All Star 2022"nin çempionu Nisa Bölükbaşı aktyor sevgilisi Ogeday Girişkinlə evlilik qərarı alıb.**

Axşam.az xəbər verir ki, cütlük bu il nişanlanacaq. Onlar toy tarixini isə hələlik gizli saxlayır.

*Qeyd edək ki, cütlük bu il müsabiqə zamanı münasibətə başlayıb. Nisa daha əvvəl isə yarışmada yer alan aktyor Barış Murat Yağcıyla eşq yaşayıb.*



# Məktub gəldi, dünya başlarına yıxıldı

## 8 yaşlı uşaq ona həyat bağışlayan donoru ilə görüşə bilmədi





**Türkiyənin Adana bölgəsində 2 il əvvəl qan xərçəngi (lösemi) xəstəliyinə tutulan 8 yaşlı Əlif Ayça Arık həkim təyinatı ilə kimyaterapiya kursu keçdikdən sonra ona ilik transplantasiya edilməsi məsləhət görülüb. İlik nəqli üçün 9 donor tapılıb. Donorlardan ən uyğun gələnindən kiçik qıza ilik nəql edilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, əməliyyat uğurla keçib və Əlifin səhhəti sürətlə yaxşılaşmağa başlayıb. Vəziyyəti yaxşılaşan, kimyaterapiya kursunda tökülmüş saçları da artıq uzanan Əlif həyatını xilas etmiş insana təşəkkür etmək üçün çəkdiyi rəsmi və yazdığı məktubu Türkiyə Kök-Hüceyrə Koordinasiya Mərkəzi vasitəsilə donoruna göndərib. Əlif məktubunda "mənim super-qəhrəmanım, sənə minnətdaram" sözlərini yazıb. Lakin məktubun göndərilməsindən aylar keçsə də, Əlif cavab almayıb. Valideynləri bunu donorun kimliyini gizli saxlamasıyla əlaqələndirməyə çalışıblar. Bu kimi hallarda donorların adı, kimliyi açıqlanmır, bəzən onlar özləri də kimliklərinin açıqlanmasını arzulamırlar. Lakin Əlifin super-qəhrəmanının üzə çıxmamasının başqa səbəbi varmış. Əlifin ailəsi donora ikinci dəfə, təkrar məktub göndərdikdən sonra həqiqət bəlli olub. 3 ay sonra Əlifə gələn cavabla qızcığaz da, anası da dəhşətə gəlib. Məktubda "necə izah edim, bilmirəm, yaxşımı deyim, pismi, amma qardaşım sizləri görmədən dünya ilə vidalaşdı", yazılıb. Məktubu Əlifə donor olan insanın qardaşı göndərib və qeyd edib ki, böyük qardaşı qəza nəticəsində həyatını itirib. Kaş ki siz onu tanıya biləydiniz. Biz sizi artıq ailəmizin üzvü kimi qəbul edirik. Anam və atam sizinlə tanış olmaq istəyir, bəlkə bununla övlad acısı azalar. Siz qardaşımdan bir parça daşıyırsınız..." sözləri yazılmış məktubu oxuduqda Əlif və anası bir-birinə sarılaraq göz yaşı töküb. Əlif isə "onu tanımasam da, heç vaxt görməsəm də, çox sevirəm. Bu an qarşımda olsaydı, ona sarılıb təşəkkür edərdim" deyib. Əlifin anası Betül Demirtaş isə "məktubumuza gələn cavabla dünya başımıza yıxıldı. Günlərlə ağladım. 25 yaşlı bir insan həyatına bir insanı həyata bağlayaraq vida etdi. Bu ailəylə tanış olmaq, övladlarının məzarını ziyarət etmək istəyirik" söyləyib və insanları başqa həyatları xilas etmək naminə kök-hüceyrə donoru olmağa çağırıb.

**Məlahət Rzayeva**

## Vədindən dönməyib, 22 ildir çimmir

**O, bununla günahsız heyvanların öldürülməsinə etiraz edir**



**Hindistan sakini 40 yaşında qadınlara qarşı cinayətlər, ərazi mübahisələri və günahsız heyvanların öldürülməsi davam etdikcə çimməyəcəyinə and içib. O vaxtdan bəri o, heç vaxt vədindən dönməyib.**

**Milli.Az bildirir ki, bu haqda "Times Now" yazıb.**

**Biharın Baikantpur kəndindən olan 62 yaşlı Dharmadev Ram 22 ildir çimmir. "1975-ci ildə Qərbi Benqalın Caqatdala şəhərindəki fabrikdə işləyirdim. 1978-ci ildə ailə qurdum və normal həyat sürdüm. Amma 1987-ci ildə birdən başa düşdüm ki, ərazi mübahisələri, heyvanların öldürülməsi, qadınlara qarşı vəhşiliklər artıb. Məni şagird kimi qəbul edən və doğru yola yönəldən bir guruya müraciət etdim", - o izah edib.**

**2000-ci ildən bəri Ram çimməkdən imtina etdi və oğlu və arvadının ölümündən sonra belə andından dönməyib. Buna baxmayaraq, kişi yaxşı məqsəd güddüyü üçün qonşular onu qınamırlar.**

## Sebastian xəyanətinin bağışlanmasını istəyir



**Amerikalı aktyor Sebastian Bear MakKlard həyat yoldaşı model Emili Ratajkovskidən onu bağışlamasını istəyir.**

**Axşam.az xəbər verir ki, bu barədə "Page six"ə cütlüyə yaxın mənbələr deyib. Bildirilib ki, aktyor daha bir şans istəsə də Emili fikrində israrlıdır.**

***Qeyd edək ki, cütlük 2018-ci ildə ailə qurub. Onların 2021-ci ildə övladı dünyaya gəlib. Bir müddət əvvəl modelin xəyanətə uğraması səbəbindən boşanmaq istədiyi ortaya çıxıb.***

## 13 gündə 6 kiloqram arıqlayıb



**"Sihirli annem" serialı ilə ulduzu parıldayan aktrisa Damla Ersubaşı xarici görünüşündə yenidən dəyişiklik edib.**

**Axşam.az xəbər verir ki, aktrisa 13 gün ərzində 6 kiloqram çəki atması ilə diqqət çəkib. Bundan başqa, Damla yeni qaraya boyadığı saçlarını qısa kəsdirib.**

**Aktrisa fotolarını izləyiciləri ilə bölüşsə də onların çoxu Damlanı tənqid edib. Buna həddindən artıq estetik etdirməsini səbəb göstəriblər.**



# Can üstə olan atı yaşatdı

## Mehmet baytar həkimlərin bacarmadığı əməliyyatı özü icra edib





**Kastamonunun Daday bölgəsində atçılıq təsərrüfatının sahibi Mehmet Kılıç baytar həkimlərin bacarmadığı əməliyyatı özü icra edib. "NTV.com.tr" də yer alan məlumatda bildirilir ki, təsərrüfatdakı atlardan biri - Alqız adlı at qəza keçirib, boynunda dərin kəsik əmələ gəlib.**

Atın boynundan qan axdığını, damarın zədələndiyini görən Mehmet Kılıç əyalətdəki baytarlara təcili müraciət edib. Biri "vaxtım yoxdu", digəri "onsuz da öləcək, uğraşmağa dəyməz", söyləyib. Həkimlərdən kömək gəlməyəcəyini anlayan Mehmet Kılıç özü atı müalicə edəcəyinə qərar verib. Atın boynundakı kəsik yerə əvvəlcə serum şlanqı keçirib. Lakin damarların getdikcə şişdiyini görüb. Bu vəziyyətdə yenə də atı xilas etməkdən vaz keçməyib və bu dəfə bağçanı sulamaq üçün istifadə etdiyi su şlanqından 25 santimetr kəsərək kəsik damarların çıxıntısını onunla birləşdirib və möhkəm sarıyıb. 3 gün at boynunu əyə bilmədiyindən sahibi onu əliylə yedirdib, suyunu vedrəni atın ağzı müqabilinə qaldıraraq içirib. Atına xüsusi qulluq göstərib, təmizləyib. Bir neçə gündən sonra Alqız özünə gəlib. Boynundakı yaranın yeri hələ tam sağalmayıb. Bağça şlanqı hələ də atın boynunda görünür. M.Kılıc deyib ki, Alqız şahə qalxarkən boyun damarını axur damının iti bucağı kəsib. Atın qan içində olduğunu görüb, özünü itirməyib və atının həyatını 25 santimetrlik bağça şlanqı ilə xilas edib. M.Kılıç təsərrüfatında 10 atının, 1 lamanın olduğunu deyib, lakin bildirib ki, Alqızın yeri başqadır. Alqız 11 yaşındadır. 9 ildir M.Kılıçın təsərrüfatındadır. M.Kılıç Alqızın saf ərəb cinsi olduğunu, bölgəyə gələn turistlər üçün onunla safari gəzintisi təşkil etdiyini deyib: "Mənim üçün əsas odur ki, Alqız sağdır, gözümün önündə gəzir...".

**Məlahət**

## Araşdırmanın nəticəsi açıqlanıb

Stresin səviyyəsi saçdan ölçülə bilər



**Meksika və İslandiyada aparılan yeni bir araşdırma, saçın stres səviyyəsini göstərə biləcəyini göstərib.**

Təxminən 1300 adamın üzərində aparılan araşdırmada, baş dərisindən alınan nümunələrin bədənin əsas stres hormonu olan kortizol səviyyəsini göstərib. Araşdırmanı həyata keçirən elm adamları kortizol səviyyəsinin orqanizmin əsas stres hormonu olduğunu bildirərək, araşdırmanın ilk dəfə olaraq stres səviyyəsinin qan, sidik və ya tüpürcəkdən başqa bir şəkildə öyrənilə biləcəyini də ortaya çıxarıb. "PLOS Global Public Health"də dərc olunan araşdırmada Meksikada 881 və İslandiyada 398 qadının saç nümunələri təhlil edilib. Tədqiqatçılar qadınların baş dərisinə ən yaxın olan hissədən 3 santimetr saç götürərək araşdırıblar. Saçların ayda 1 santimetr uzandığı məlum olub və sonra müayinə edilib. Araşdırmada qadınlara həyatları ilə bağlı suallar verildikdə stres səviyyəsinin ilk beşində olan qadınların kortizol səviyyəsinin 24,3 olduğu müəyyən edilib. Tədqiqatın müəlliflərindən biri, Reykyavik Universitetinin alimi Dr.Rebekka Linç, saçdakı kortizolun ölçülməsinin xroniki stresin diaqnozunda əlverişli rol oynadığını bildirib. Tədqiqatın hesabatında, "İki fərqli coğrafi və mədəni mənşəyə malik qadın nümunəsində qəbul edilən stres və saç kortizol konsentrasiyası arasında əlaqə tapıldı. "Tədqiqat saç kortizolunun konsentrasiyasının xroniki psixoloji stress tədqiqatlarında etibarlı biomarker olduğu fərziyyəsini dəstəkləyir".

**Turan**

## Terror aktları ABŞ-ı sarsıdıb

Məktəblər gülləkeçirməz materialla əhatələnəcək





**Texasdakı orta məktəbdə 19 şagird və 2 müəllimin ölümüylə nəticələnən terror aktından sonra məktəb pəncərələri və sinif otaqlarının gülləkeçirməz materialla əhatələnməsi gündəmə gəlib.**

Buna səbəb son illərdə ABŞ-da terror aktlarının sayının artması, çox zaman da terror aktlarının məktəblərdə, məktəb, lisey binaları qarşısında törədilməsidir. Bu barədə "NTV.com.tr" məlumat verir. Məlumatda bildirilir ki, ABŞ təhsil sistemi yetkililəri məktəblərdə, təhsil ocaqlarında təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkili üçün gülləkeçirməz pəncərə şüşələrindən istifadəni, habelə sinif otaqlarının da gülləkeçirməz materialla əhatələnməsini təklif edir. Yetkililər hesab edir ki, hazırkı vəziyyət təhlükələri önləmək üçün yetərli deyil. Sonuncu Texas terrorunda isə təhlükəsizlik qüvvələrinin hadisəyə gec müdaxilə etdiyi və lazımi tədbirlərin zamanında icra edilmədiyi məlum olub. Artıq Florida ştatında bir şirkət gülləkeçirməz sinif otaqlarının istehsalına başlayıb. ABŞ ictimaiyyəti hazırda bu məsələni müzakirə edir; gülləkeçirməz kabinələr tədris prosesinə necə təsir edəcək? Bir çoxları bu fikirdədir ki, gülləkeçirməz sinif otaqları, ölkədə terrorla mübarizənin lazımi səviyyədə olmadığının göstəricisi ola bilər, bu isə şagirdlərin, əksinə, qorxu altında qalmasıyla nəticələnər.

**Məlahət**